www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 noyabr 2018-ci il Cümə axşamı № 238 (7127) Qiyməti 60 qəpik

**Xəbər**

## 77 yaşlı nənəsini öldürüb yandıran nəvə tutuldu

yazısı səh.2-də

# HƏRB MAŞINIMIZ GÜCLƏNİR - AZƏRBAYCAN YENİ SİLAHLARIN İSTEHSALINA BAŞLADI

Bakının işğalçıya qarşı "qamçı və kökə" taktikası davam edir; düşmən isə Azərbaycanın xoşməramlı siqnallarına, "hamını hamıya dəyişmək" təklifinə adekvat cavab verə bilmir - kritik gəlişmə



yazısı səh.8-də

**Gündəm**

## Sabiq XİN rəhbəri Ukraynadakı diplomatlarımızın pul davasından danışdı



**Tofiq Zülfüqarov:** "Səfir özbaşına maliyyə yoxlaması keçirə bilməz"

yazısı səh.9-da

## Cəbhə bölgəsində izdihamlı bayraq yürüşü

yazısı səh.4-də

## Jurnalistlərin sorğusundan yayınan məmurlar: qanunun tələbi sərtdir...

yazısı səh.10-da

## Ekspertlər maliyyə nazirinin "şad və bəd" xəbərlərini şərh etdilər

yazısı səh.5-də

## "Rus NATO"-sunun sammiti ərəfəsində Ermənistanın Qarabağ təxribatı

yazısı səh.11-də

## Deputatlardan hökumətə onlayn media və uşaqpulu müraciəti

yazısı səh.12-də

## Dünyanın unutduğu, aclıq hökm sürən Yəmən

yazısı səh.13-də

## Milli-mənəvi məsələlərdə cəmiyyətdən sərt reaksiyanın tək səbəbi...

yazısı səh.12-də

## Qanunsuz fəaliyyət göstərən 7 karxana sahibi həbs edildi

yazısı səh.14-də

## Bu gün Bakıya güclü yağış yağacaq

yazısı səh.2-də

## ABŞ-da aralıq seçkilərdə müxalifət üstünlük qazandı

yazısı səh.13-də

# Londonda saxlanılan Zamirə Hacıyeva Azərbaycana gətiriləcək - ilginc faktlar

Həbsdəki keçmiş bankir arvadının başı dərddə; Hacıyevanın tutulması ilə bağlı yeni təfərrüat

yazısı səh.3-də



*Aqil Abbas:*

**"Mənim bir su köşküm də yoxdur, yeganə ağdamlıyam ki, bu işi bacarmıram"**

yazısı səh.7-də



*İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə::*

**"Sanksiyalardan sonra əlimizi-qolumuzu sallayıb, oturub baxmayacağıq"**

yazısı səh.6-da



İdris İsayev

**Nazir müavini şəhid varəsələrinə ödəmələrlə bağlı problemlərdən danışdı**

yazısı səh.2-də

# 8 noyabr 2018



## Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsini qəbul edib

**Azərbaycan prezidenti İlham Əliyev noyabrın 7-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

"Report" xəbər verir ki, görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının uğurla inkişaf etdiyi bildirilib, hazırda ölkəmizlə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni saziş üzrə danışıqların aparıldığı vurğulanıb və bu sazişin gələcək əməkdaşlığın hərtərəfli inkişafı üçün əlverişli imkan yaradacağı qeyd olunub.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi ətrafında, Azərbaycanla Avropa İttifaqı arasında turizm, nəqliyyat, təhsil və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

## Azay Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ankaraya səfərə gedib



**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevin başçılıq etdiyi nümayəndə heyəti 8-10 noyabr 2018-ci il tarixlərində Türkiyənin Ankara şəhərində səfərdə olacaq.**

Səfər çərçivəsində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında birgə fəaliyyət və əməkdaşlıq haqqında memorandum imzalanacaq.

Nümayəndə heyətinin Türkiyə Böyük Millət Məclisi, Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi, Türkiyə Dərnəklər Dairəsi, Vəqflər Baş İdarəsi, Xaricdə yaşayan Türklər və Əqraba Topluluqları Başqanlığında görüşlər keçirməsi nəzərdə tutulur.

Qeyd edək ki, nümayəndə heyətinə Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov və beynəlxalq əlaqələr, analtik təhlil və ekspertiza bölməsinin rəhbəri Toğrul Məmmədli daxildir.

## 77 yaşlı nənəsini öldürüb yandıran nəvə tutuldu

**Nəsimi rayonu ərazisində törədilmiş qətlin üstü "isti izlər"lə açılıb. Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğundan «Trend»ə verilən məlumatına görə, noyabrın 6-da paytaxtın Nəsimi rayonu, Ə.Hüseynzadə küçəsi, 81 saylı ünvanda baş vermiş yanğın saat 09:30 radələrində söndürüldükdən sonra həmin evdə yaşamış, 1941-ci il təvəllüdlü Tamilla Axundovanın üzərində bıçaq xəsarəti olan yanmış meyitinin aşkar edilməsi barədə rayon prokurorluğuna daxil olmuş məlumat əsasında Bakı şəhər, Nəsimi rayon prokurorluqları və polis idarəsinin əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş və digər zəruri prosessual hərəkətlər aparılmışdır.**

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış və müvafiq ekspertizalar təyin edilmişdir.

Polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin T.Axundovanın nəvəsi, 1994-cü il təvəllüdlü Eldar Əfəndiyev tərəfindən tamah niyyəti ilə törədilməsinə kifayət qədər əsaslı şübhələr olduğundan o, şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunmuşdur.

Hazırda cinayət işi üzrə Bakı Şəhər Prokurorluğunda zəruri istintaq tədbirləri davam etdirilir.

# Nazir müavini şəhid vərəsələrinə ödəmələrlə bağlı problemlərdən danışdı

**9 oktyabr tarixinə olan məlumata görə, 300-dən artıq şəhid hərbi qulluqçunun vərəsələrinə dair sənəd daxil olub.**


İdris İsayev

Oxu.Az-ın məlumatına görə, bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev deyib.

Onun sözlərinə görə, sənədlərə işçi qrupu tərəfindən baxıldıqdan sonra 114 şəhid hərbi qulluqçunun 146 vərəsəsinə birdəfəlik ödəmənin verilməsi təsdiq olunub:

"Həmin vərəsələrin sənədləri Maliyyə Nazirliyinə təqdim olunub. Bu ilin sonuna qədər vərəsələrin yarısına bu vəsaiti vermək imkanımız olacaq. Növbəti ildə digər yarısına bu vəsaitin verilməsi nəzərdə tutulub".

**İdris İsayev bildirib ki, vaxtilə ödəmə alan şəhid hərbi qulluqçuların yaxınları tərəfindən gələn şikayətlərə də baxılıb:**

"Aidiyyəti orqanlardan şikayətlərin araşdırılması üzrə sənədlər istəmişik. Şikayətçilərin bir qismi vaxtilə dönüş almadıqlarını bildirirlər və adları siyahıda yoxdur. Onlara dair əldə etdiyimiz sənədlərdən bəlli olur ki, 80 müraciət üzrə sığorta ödənişinə dair sənədlər mövcuddur və yanlış olaraq şikayət edirlər".

"Şikayətlərin bir qismində anlaşılmazlıq da olub. 10-dan artıq halda həmin şəxslər səhv olaraq müraciət ediblər. Onların adı siyahıda var", - deyə nazir müavini qeyd edib.

"1992-ci ildə kompüter yox idi, ona görə də sənədlər əllə yazılırdı. Sonralar əllə yazılan və möhürlü olan bütün jurnallar yığılıb, orada olan məlumatlar toplanıb və kompüterdə yazılaraq sistemə daxil edilib".

**"Report"un xəbərinə görə, bunu Dövlət Sığorta Kommersiya Şirkətinin sədr müavini Aftandil Hacıyev deyib.**

**O bildirib ki, şəhid vərəsələri sığorta ödənişlərini Əmanət Bankından alıblar:** "Əmanət Bankında vərəsələr üçün əmanət hesabı açılıb. Bununla bağlı da sənədlər var. Bəzi vətəndaşlar pullarını hesabda saxlayıblar ki, üstünə faiz gəlsin".

A.Hacıyev qeyd edib ki, Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsində də müvafiq sənədlər saxlanılır.

# Bakıda güclü yağış yağacaq

**Azərbaycanda noyabrın 8-nə gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, noyabrın 8-də Bakıda və Abşeron yarımadasında gün ərzində arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində yağışın intensiv olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək.**



Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 8-10, gündüz 14-16 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi normadan yüksək 770 mm civə sütunundan 766 mm civə sütununa enəcək, nisbi rütubət 80-90 faiz olacaq.

Azərbaycanın rayonlarında noyabrın 8-də hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin Lənkəran-Astara zonasında gecə və səhər yağış yağacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 5-10, gündüz 14-18° isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 3-8 dərəcə isti təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza görə, noyabrın 8-9-da Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişli olsa da, rütubətli hava şəraiti bəzi insanlarda narahatlıq hissi yarada bilər.

ETSN xəbərdarlıq edib ki, Bakıda və Abşeron yarımadasında noyabrın 8-i gündüzdən 9-u gündüzədək arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə yağışın intensiv olacağı ehtimalı var.

Azərbaycanın rayonlarında noyabrın 8-dən 9-u səhərədək Lənkəran-Astara zonasında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə yağışın intensiv olacağı ehtimalı var.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**



## "Mixail Saakaşviliyə Gürcüstan vətəndaşlığını qaytaracağam" - Qriqol Vaşadze

**"Gürcüstan prezidenti seçiləcəyim təqdirdə Mixail Saakaşviliyə Gürcüstan vətəndaşlığını qaytaracağam".**

"Report"un yerli bürosunun məlumatına görə, bunu "Güc birlikdədir" siyasi blokunun prezidentliyə namizədi Qriqol Vaşadze "Deutsche Welle"yə müsahibəsində deyib.

Q.Vaşadze M.Saakaşvili ilə yanaşı, bütün siyasi məhbusları da əfv edəcəyəni bildirib: "Hüquqşünas kimi mən ədalətin bərqərar olunmasını istəyirəm və bu, belə də olacaq. Gürcüstanın üçüncü prezidenti Gürcüstanda yaşamaq hüququ əldə edəcək. Mixail Saakaşvilinin bu hüquqdan istifadə edib-etməyəcəyi onun özündən asılı olacaq".

**Prezidentliyə namizəd Gürcüstanın hər bir dərrakəli vətəndaşı kimi ölkəni müasir dövlətə çevirdiyinə görə M.Saakaşviliyə minnətdar olduğunu qeyd edib:** "Gürcüstanın hüquq-mühafizə orqanları və ya məhkəmə sisteminin Mixail Saakaşviliyə sualları varsa, o, bunlara cavab verməlidir. Əgər Saakaşvili Gürcüstanda özünün siyasi gələcəyini qurmaq istəyirsə, o zaman qərarı gürcü xalqı qəbul edəcək".

Qeyd edək ki, Gürcüstanda prezident seçkilərinin ilk turu bu il oktyabrın 28-də keçirilib. Prezidentliyə namizədlərdən heç biri səslərin 50%-dən çoxunu qazana bilməyib. Ölkə qanunvericiliyinə əsasən, prezident seçkilərinin ikinci turu dekabrın 2-dən gec olmayaraq keçirilməlidir. İkinci turda mübarizə hakim Gürcü Arzusu Partiyasının dəstəklədiyi müstəqil namizəd Salome Zurabişvili və "Güc birlikdədir" siyasi blokunun namizədi Qriqol Vaşadze arasında gedəcək.

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

# Zamirə Hacıyeva Azərbaycana gətiriləcək

## Həbsdəki keçmiş bankir arvadının başı dərddə; Hacıyeva ölkəmizə ekstradisiya ediləcək - yeni təfərrüat

**Beynəlxalq Bankın keçmiş sədri Cahangir Hacıyevin arvadı Zamirə Hacıyeva Londonda həbs edilib. "The Financial Times" qəzeti yazır ki, barəsində seçilmiş həbs-qətimkan tədbirinin dəyişdirilməsi məsələsinə baxılarkən Zamirə Hacıyevanın vəkili, barrister Hyuqo Keyt hakim Emma Arbutnota onun 3 uşaq anası olduğunu söyləyib.**



Vəkil xahiş edib ki, bunu nəzərə alaraq qadının həbsi girov əvəzində ev dustaqlığı ilə əvəz edilsin. O, vəsatətində göstərib ki, Zamirə Hacıyevanın Azərbaycana ekstradisiyası barədə gələn ilin iyununda baş tutacaq məhkəməyə qədər o, ev dustağı kimi Londonda qalmalıdır.

Vəkil bildirib ki, Zamirə Hacıyeva üçün bu həbs qərarı "dəhşətli şok" yaradıb. Hyuqo Kit etiraf edib ki, Zamirə Hacıyeva Londonda böyük pullar xərcləyib, amma Azərbaycan tərəfinin ittihamında onun bilavasitə bankdan pul oğurladığı göstərilmir. Pulları ailənin yeganə qazanc mənbəyi olan əri Cahangir Hacıyev gətürüb. Amma hakim Azərbaycan tərəfinin ekstradisiya sorğusundan sitat gətirərək xanım Hacıyevanın bankomatlardan Beynəlxalq Bankın kartları ilə 8 milyon funt sterlinq çıxarıb xərclədiyini bildirib. Barrister bununla razılaşmayıb: "Onu böyük xərcləmələrdə və mənimsəmədə ittiham edirlər. Lakin bu, heç də o demək deyil ki, Hacıyeva həmin gəlirlərin cinayət yolu ilə əldə edildiyini bilirdi".

Hakim Z.Hacıyevanın 500 min funt sterlinq girov qarşılığında ev dustaqlığına buraxılmasına razılıq verə biləcəyini ifadə edib, amma prokurorlar dərhal buna etiraz ediblər. Beləliklə, Zamirə Hacıyeva həbsdə qalıb.

55 yaşlı Zamirə Hacıyeva Londonun mərkəzində 15 milyon funt sterlinq dəyəri olan evdə yaşayır. Onun vəkilləri qadının "fırıldaqçı" olmadığını deyirlər. O, Britaniyada ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (UWO) çərçivəsində həbs olunub. UWO, Britaniyada potensial çirkli pullara malik şübhəli korrupsioner xarici rəsmiləri hədəfləmək üçün yeni qanundur. Məhkəmədə məlum olub ki, Zamirə Hacıyeva keçən həftə London polisi tərəfindən həbs olunub. Onun həbsi Azərbaycanda hakimiyyətin Zamirə Hacıyevanın Bakıya ekstradisiyası barədə xahişi ilə bağlıdır. O, 2 mənimsəmə ittihamı ilə üz-üzədir və noyabrın 1-də polisə təslim olduqdan sonra təcridxanada saxlanılır. Zamirə Hacıyevanın vəkilinin təqdim etdiyi apelyasiya şikayətinə bu gün Ali Məhkəmədə baxılacaq.

### 55 yaşlı bu qadın kimdir?

Zamirə Hacıyeva bir vaxtlar orta məktəb müəlliməsi işləyib. Ali təhsilini Moskvada alıb, rus dili və ədəbiyyatı müəllimidir. Orta məktəbdə dərs deyib. Ailə qurandan sonra çalışmayıb. Adı müxtəlif vaxtlarda mətbuatda hallanıb. Keçmiş bankir Cahangir Hacıyevin arvadı olduğu üçün oğurlanaraq 1 ay girov saxlanıb. Daha sonra MTN-in xüsusi əməliyyatı ilə azad edilib. 3 övlad anasıdır. 2 oğlu, 1 qızı var. 2 dəfə ailəli olub. Birinci nikahdan olan qızı keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun oğlu ilə ailə qurub. 2 oğlu hazırda Böyük Britaniyada "boarding school"da təhsil alır. Zamirə Hacıyevanın məhz övladlarına görə bu ölkədə yaşadığı deyilsə də, bu ölkənin Daxili İşlər Nazirliyi ona Britaniyada varlı sahibkarlar üçün nəzərdə tutulmuş viza ilə yaşamaq icazəsi verib.

Yada salaq ki, həbsindən az əvvəl Zamirə Hacıyevanın üzərinə həbs qoyulmuş 400 min funt-sterlinq (təxminən 519 min 278 dollar) məbləğində qızıl-zinət əşyalarını xəlvəti satmaq cəhdi ifşa olunmuşdu. Məlum olmuşdu ki, həmin zinət əşyalarını Londondakı "Christie's" hərrac evində satılmaq üçün verilibmiş. Britaniyanın Milli Kriminalla Mübarizə Agentliyi (National Crime Agency, NCA) qanunsuz gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə qanunu çərçivəsində Z.Hacıyevanın 10 milyonlarla dollarlıq aktivlərinə həbs qoyub. Məlum olub ki, 7 il əvvəl Britaniyanın Virgin adalarında yerləşən bir şirkət vasitəsilə Londonun qərbində bir evə 11.5 milyon funt (15.13 milyon dollar) ödəyib. Bu arada həmin mülkün fotoları da xarici və yerli mətbuatda yayılıb. Ali Məhkəmə dinləmələrində evin sahiblərinin Zamirə Hacıyeva və onun həyat yoldaşı Cahangir Hacıyev olduqları aşkara çıxıb. 2013-cü ildə Zamirə Hacıyevanın nəzarət etdiyi başqa bir şirkət Berkshire qraflığında, Ascot kəndinin yaxınlığında təmtəraqlı qolf kursu və əmlakını almaq üçün 10 milyon funt (13.15 milyon dollar) xərcləyib. O, son 10 il ərzində "Harrods"da 16 milyon funt (21.04 milyon dollar) xərcləyib. Bu, gündə 4 min funtdan çox xərcləmə deməkdir.

Cahangir Hacıyev Beynəlxalq Banka 2001-ci ildən sədrlik edirdi. 2015-ci ildə Beynəlxalq Bankla bağlı araşdırma başlanan zaman o da həbs edilib. O, mənimsəmə, vəzifə saxtakarlığı kimi bir neçə cinayətdə ittiham olunub, 15 il azadlıqdan məhrum edilib. Rəsmi məlumatlar cütlüyün "Harrods"un bahalı avtomobil parkında iki xüsusi yerə sahib olduqlarını və Zamirə Hacıyevanın 42 milyon funta (55.24 milyon dollar) "Gulfstream G550" jet təyyarəsini aldığını da ortaya çıxarıb. Artıq Zamirə Hacıyeva Böyük Britaniyanın Maliyyə Cinayətkarlığı İstintaq Mərkəzində dindirilib. Z.Hacıyeva zinət əşyalarını qeyri-qanuni satmaq cəhdi ilə əlaqəli istintaqa cəlb olunaraq saxlanılıb. Məlumdur ki, zinət əşyalarının satılmasında adı keçən Leyla Mahmudova sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun oğlunun həyat yoldaşıdır. Zamirə Hacıyevaya Böyük Britaniyada bu ölkənin Daxili İşlər Nazirliyi varlı sahibkarlar üçün nəzərdə tutulmuş viza ilə yaşamaq icazəsi verib. Həmin viza ləğv ediləcəyi təqdirdə Zamirə Hacıyeva Azərbaycana təhvil verilə bilər.

Zamirə Hacıyeva Beynəlxalq Bank işində mənimsəmə faktına görə təqsirləndirilir. 2016-cı il iyunun 1-də Nərimanov Rayon Məhkəməsində hakim Turqay Hüseynovun sədrliyi ilə keçirilən prosesdə Zamirə Hacıyevanın barəsində axtarışlı həbs-qətimkan tədbiri seçilib və onun tutularaq istintaqa təhvil verilməsi üçün barəsində axtarış elan edilib. Böyük Britaniyada mühakiməsinin ardından Zamirə Hacıyevanın gələn ilin yayında Azərbaycana təhvil veriləcəyi gözlənilir.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Merkelli və Merkelsiz Avropa...



**Hüseynbala SƏLİMOV**

**Hər hansı siyasi arxitektura o vaxt mükəmməl və yaşarlı olur ki, bilavasitə cari siyasi konyunkturadan - bir siyasi liderin digəri ilə əvəz olunmasından asılı olmur.**

Görünür, Avropa Birliyi hələ bu hala gəlməyibdir, əks təqdirdə, A.Merkelin 2021-ci ildə hakimiyyətdən gedəcəyi haqqındakı bəyanatından sonra təhlilçilər intensiv şəkildə bundan sonra Avropada yarana biləcək neqativ proseslərin təhlilinə girişməzdilər, hərçənd eyni bir hadisənin Almaniyanın özünün daxili siyasi atmosferi üçün də təsirini araşdıranlar da az deyil.

Amma bir daha deyirik ki, Merkel çoxdan milli ampluadan çıxmış və indiki halda qitə miqyası almış yeganə alman siyasətçisidir və həm də Almaniyanın özünün siyasi dayanıqlılıq baxımından hər hansı problem yaşaya bilməsinin ehtimalı az olduğundan təhlillər və araşdırmalar daha çox Almaniya-Avropa Birliyi müstəvisində aparılır.

Əslində brekzitə qədər hər şey qaydasında idi və çox az adam güman edə bilərdi ki, vahid Avropa arxitekturası üçün bütün işlər başa çatdırılandan sonra 50 illik prosesdə əks tendensiyalar baş qaldıra bilər. Amma bu, oldu və Britaniya Birliyi tərk etmək haqqında qərar verdi ki, bunun da bir neçə səbəbi vardır.

Birincisi budur ki, dumanlı Albion qurumda ikinci və yaxud da ki, üçüncü skripka olmaq istəmədi və Almaniya ilə də bacarmadı. Ona görə də adada proteksionist mərkəzdənqaçma tenendensiyaları baş qaldırdı.

Düzdür, burada çox maraqlı bir tendensiya da az rol oynamadı- avrointeqrasiya tərəfdarı olan britaniyalılar referendumda elə bir fəallıq göstərmədilər.

Amma bizə elə gəlir ki, əsas məsələ heç bu da deyildi: vahid Avropa ideyası köklərilə tarixin dərinliklərinə getsə də onun formalaşmasında soyuq müharibə qayğıları və ya təhlükəsizlik motivləri az rol oynamamışdı. Bu səbəbdən də "Putin Rusiyası" fenomeni meydana gəlməsəydi bəlkə də Avropada dezinteqrasiya prosesləri daha sürəkli və intensiv xarakter alacaqdı.

Bütün bu səbəblərdən, eləcə də prezident D.Trampın hakimiyyətə gəlişindən və ziddiyyətli bəyanatlarından sonra qitədə diqqət əsasən Almaniyaya və bir də A.Merkelə yönəlmişdi.

Düzdür, Merkel özü də çox ziddiyyətli siyasətçidir və təsadüfi deyil ki, NATO-nun sonuncu sammitində amerikalı həmkarları hətta onu Putinlə gizli "iş birliyin"də ittiham etdilər. Tramp həmin sammitdə demişdi ki, ABŞ hər il Avropanın təhlükəsizliyi üçün böyük vəsaitlər ayırır, amma avropalılar özləri bunu müxtəlif layihələrlə Rusiyaya yönəldirlər...

Əlbəttə, Trampı ən çox dilxor edən Almaniya ilə Rusiyanın böyük və müştərək qaz layihəsi- Şimal axını layihəsidi. Hazırda ABŞ Rusiyanı Avropanın qaz bazarından sıxışdırmaq üçün çox böyük cəhdlər edir və qitənin qaz problemlərinin həlli üçün böyük maye qaz layihələri qurur.

Amma xanım Merkeldən ciddi bir şəkildə bədgüman olmaqçün əsas verən amillər tək bunlar da deyil. Almaniya kansleri Türkiyənin Avropa Birliyinə və GUAM üçlüyü ölkələrinin də NATO-ya inteqrasiyasını əngəlləyən ən əsas siyasi fiqurlardan sayılır və xüsusən də sonuncu ilə - Gürcüstanın, Ukraynanın və Moldovanın NATO - ya üzvülüyü ilə bağlı onunla amerikalı həmkarlarının arasında daim ixtilaflar yaşanır.

Fəqət, bir az əvvəldə dedik ki, Merkel çox ziddiyyətli siyasətçidir. Məsələn, onun bu ilin payızında Cənubi Qafqaza etdiyi səfər xüsusi bir detalla yadda qalmadı. Xüsusən də nəzərə almaq lazımdır ki, o, özünün Qafqaz turnesi ərəfəsində V.Putinlə görüşməyi də yaddan çıxarmamışdı.

Amma o da var ki, Merkel Rusiyanın keçmiş sovet məkanındakı münaqişələrdəki roluna işarə edən yeganə böyük siyasət adamıdır və bu xüsusda onun son açıqlaması elə bu yaxın zamanlarda Baltik ölkələrində olmuşdu.

Burada A.Merkel almaniyalı hərbçilər qarşısında çıxış edərkən açıq mətnlə bildirmişdi ki, keçmiş sovet ölkələrinin bir qismi məhz Rusiyanın yaratdığı münaqişələr ucbatından ərazilərinin bir hissəsinə nəzarəti itiriblər və hal - hazırda ərazi bütövlüyünü təmin etmək yolunda həmin ölkələr çox böyük çətinliklərlə qarşılaşırlar.

Əlbəttə, son olaraq demək lazımdır ki, Qərbdə, xüsusən demokratik Avropada heç bir siyasətçi "göz dağı"na çevrilmir, beş -on ildən sonra siyasəti tərk edirlər. Merkellə bağlı da belə olacaq. O ki qaldı vahid Avropanın taleyinə, bu məsələni də şişirtmək lazım deyil - avropalılar buna ehtiyac duyacaqlarsa, Birlik yaşayacaq, duymayacaqlarsa, o halda o, dağılacaq və yaxud da başqa bir formaya transformasiya edəcək...

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

# Korrupsionerləri “siyasi məhbus” edən təşkilat parçalandı-müdhiş faktlar

## Elşən Həsənov: “Onlar pul veriblər...”




**Siyasi Məhbusların Müdafiəsi Mərkəzi (SMMM) parçalanıb. Buna qurumun və Milli Şuranın Koordinasiya Mərkəzinin üzvləri Eldəniz Quliyev və Oqtay Gülalıyev arasında bu günlərdə yaşanan gərginlik səbəb olub. Musavat.com-a daxil olan məlumata görə, gərginliyin kökündə hər iki şəxsin siyasi məhbus adı altında Avropadan aldıqları maliyyə vəsaitlərini bölüşdürə bilməmələri durur.**

Artıq SMMM üzvlərinin bir hissəsi siyasi məhbuslarla bağlı yeni bir təşkilat yaradıblar. Belə ki, Leyla Yunus (Sülh və Demokratiya İnstitutunun direktoru), Elşən Həsənov (Siyasi Məhbusların Monitorinq Mərkəzinin sədri), Eldəniz Quliyev (Azərbaycan Ziyalılar Birliyinin sədri) və Hilal Məmmədov (“Tolışi Sədo” qəzetinin baş redaktoru) birləşərək “Siyasi Məhbuslara Azadlıq” ittifaqını yaradıblar. O.Gülalıyevin rəhbərlik etdiyi dəstə isə SMMM çərçivəsində fəaliyyətlərini davam etdirir.

**E.Həsənov “Yeni Müsavat”a açıqlamasında yeni təşkilat yaratmalarının səbəblərini açıqladı:** “Oqtay Gülalıyev ”Avropa işi"ni yazmışdı. Ora bir neçə nəfərin adlarını daxil etmişdi. Hansılar ki, onların həbsində, təqibində siyasi motiv yox idi. Məsələn, Elşad Abdullayev və Riyad Əliyev kimi şəxslərin adları siyahıya salınmışdı. Məndə olan məlumata görə, bu şəxslərə hətta Avropada dələduzluqla bağlı cinayət işi açılıb. Onlar bizə müraciət etdilər ki, adlarını siyahıya salaq. Biz bunu qəbul etmədik. Oqtayı da məlumatlandırdıq ki, bu şəxslərin adları siyahıda olmayacaq. Siyahı ciddi bir sənəddir. Orada gərək hər şey uyğun olsun. Oqtay bu şəxslərin hamısının adlarını siyahıya daxil etdi. Nəticədə xaricdə oturub bu sənəddən oturum almaq üçün istifadə etməyə başladılar. Biz də buna etiraz edib, bir neçə sayt vasitəsilə bildirdik ki, o sənədi qəbul etmirik. Təşkilatda hər hansı bir qərar, sənəd ümumi razılıqla qəbul olunmalıdır. Oqtay bu şərtlərə əməl etmədi. Facebookda lazımsız statuslar da yazdı. Xəbərdarlığımıza əhəmiyyət verilmədiyi üçün biz ölçü götürdük, Oqtayın adını siyahı yazmaqdan çıxardıq. Mənə konkret olaraq Almaniya və bir sıra ölkələrdən yazdılar, xahiş etdilər ki, adlarını siyahılara salaq. Çoxları siyasi partiya üzvləri idi və bir çoxunu tanıyıram. Elşad Abdullayev və Riyad Əliyevlə bağlı söz-söhbətlər yarandı ki, onlar pul veriblər, qarşı tərəf də onların adlarını siyahılara salaraq öhdəlik götürüblər. Adımız ləkələnməsin deyə onlardan kənarda qalmağa qərar verdik. Bizə də pul təklifləri olur. Amma bu təklifi qətiyyən qəbul etmirik. Xatırlayırsınızsa, ötən il mətbuatda, o cümlədən sizin qəzetdə və facebookda xəbərlər getmişdi ki, həbsdə olan Cahangir Hacıyev adının siyahıya salınması üçün bir milyon pul təklif edib. Belə bir təklif olubsa, mənə olmayıb. O zaman təkliflər bu oldu ki, onun adını siyahıya daxil edək. Biz də o zaman bunun qəti şəkildə əleyhinə çıxdıq. Bizim siyahıda oliqarxların, narkomanların adları ola bilməz. Yeni təşkilatımızın hazırlayacağı siyasi məhbus siyahısı da bu cür olacaq. Biz çalışırıq ki, çirkli işlərdən kənar olaq. Pul məsələsini çox eşitmişəm. Amma onu deyə bilmərəm ki, bu pul Oqtaya təklif olunub, o da götürüb. Əslində o, pis bir insan deyil. Lakin bu heç nəyi dəyişmir, siyasətə aidiyyəti olmayan şəxslərin adlarının siyahılara salınmasına susa bilmərik. Elşad Abdullayevin yaxın qohumu olan Mübariz Abdullayevin adını 4-5 il əvvəl Oqtay siyahıya daxil etmişdi. Biz onun adını yaxınlarda siyahıdan çıxardıq. Oqtay bizə sübut etməyə çalışırdı ki, Elşadın yaxınlarına burada təzyiqlər olur. Mənim də hər hansı bir qohumum qəza törədib həbs edilə bilər. İndi deyim ki, o siyasi məhbusdur? Elşad Abdullayev, Riyad Əliyev və eləcə də onlarla insanlar zamanında ölkəni dağıdırdılar, rüşvətxorluq, korrupsiya ilə məşğul olurdular, indi onları siyahıya alaq? Bu cür halları yaşamamağımız üçün yeni bir təşkilat yaratdıq".

**H.Məmmədov isə bunları dedi:** “Oqtay bəylə aramızda müəyyən fikir ayrılıqları olsa da, biz qarşılıqlı sağlam münasibətlərimizi davam etdiririk. Burada hər hansı bir pul məsələsi yoxdur. Sadəcə olaraq, siyasi məhbusların hüquqlarının müdafiəsi və azadlığı naminə daha real addımların atılması naminə yeni təşkilatın yaradılmasına ehtiyac duyduq”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

**Noyabrın 6-da Təhsil və Müdafiə nazirlikləri Füzuli rayonunun Horadiz şəhərində 9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə “Bayraq yürüşü” keçirib.**

# Cəbhə bölgəsində izdihamlı “Bayraq yürüşü”

## Təhsil və Müdafiə nazirlikləri Füzuli rayonunun Horadiz şəhərində Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirib














Bildirilib ki, yürüşün keçirilməsində əsas məqsəd milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hissinin və milli-mənəvi dəyərlərin aşılanmasıdır.

“Yeni Müsavat”ın əməkdaşının da qatıldığı yürüşdə təhsil nazirinin müavini Firudin Qurbanov, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, Müdafiə Nazirliyinin əməkdaşları, hərbçilər, ziyalılar, şagird və müəllimlər, KİV və QHT nümayəndələri iştirak edib.

Yürüşdən əvvəl iştirakçılar Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzində mərhum prezident Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar.

Daha sonra iştirakçılar bayraq meydanına yürüşə başlayıblar. Havanın yağışlı olmasına baxmayaraq, yürüşə qatılan rayon camaatı, məktəblilər sona qədər yürüşdə iştirak edib, Horadizdə Bayraq meydanı ərazisinə yollanıblar. Bayraq meydanında təşkil olunan tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudun Qurbanov tədbiri açaraq üçrəngli bayrağın Azərbaycan dövlətinin müqəddəs rəmzlərindən biri və bu il 100-cü ildönümü qeyd edilən Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olduğunu vurğuladı. Firudin Qurbanov qeyd etdi ki, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yarananda dövlət atributu olaraq məhz üçrəngli bayraq təsdiq olunub. Nazir müavini Təhsil Nazirliyinin təşəbbüsü ilə ənənəvi olaraq keçirilən “Bayraq yürüşü”nün gənclərin milli dəyərlərə ehtiram, milli ideallara bağlılıq ruhunda tərbiyə olunması baxımından əhəmiyyətini diqqətə çatdırdı. Bu gün Azərbaycan dövlətinin yüksək sürətlə inkişaf etdiyini, bir çox beynəlxalq reytinqlərdə yaxşı uğurlar əldə etdiyini xatırladan nazir müavini əldə edilən bu yüksək nəticələrin ölkəmizin gücünü bütün dünyaya nümayiş etdirdiyini bildirdi. Firudin Qurbanov varlığımızı dünyaya tanıdan bayrağımızın ölkə prezidentinin rəhbərliyi altında işğal altında olan ərazilərimizdə dalğalanacağı günün uzaqda olmadığına inamını ifadə etdi.

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev də çıxış edərək cəbhə bölgəsində belə tədbirin keçirilməsinin gənclərdə bayraq sevgisini daha da artıracağını vurğuladı. Azərbaycan bayrağının tarixindən söz açan Alı Alıyev bayrağımızın işğal olunmuş torpaqlarımızda dalğalanacağı günə az qaldığını əminliklə vurğuladı.

“N” saylı hərbi hissə komandirinin müavini, polkovnik Elşad Əbilov da öz növbəsində Azərbaycan silahlı qüvvələrinin üçrəngli bayrağımızı ali baş komandan, cənab İlham Əliyevin rəhbərliyi altında işğalda olan ərazilərimizdə dalğalandırmağa hər an hazır olduqlarını bildirdi. Elşad Əbilov meydana yığışan Füzuli camaatının, eləcə də bütün Azərbaycan xalqının yeganə arzusunun ərazi bütövlüyümüzün bərpasının olduğunu qeyd etdi.

Tarix elmləri doktoru Anar İsgəndərov da böyük coşqu ilə çıxış edərək bayraq sevgisini nümayiş etdirdi. O bildirdi ki, Azərbaycanın üçrəngli bayrağının yenidən dövlət rəmzi kimi bərpa olunması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dövlət müstəqilliyini bərpa edən dövrdə üçrəngli bayrağımız ilk dəfə ulu öndər Heydər Əliyevin sayəsində Naxçıvan Muxtar Respublikasında dalğalanıb. Onun sözlərinə görə, hər bir Azərbaycan vətəndaşı üçrəngli bayrağımızın bütün torpaqlarımızda dalğalanması üçün əlindən gələni etməlidir.

Füzuli təhsilinin inkişaf etdiyini deyən Füzuli rayonu Təhsil şöbəsinin müdiri Ramella Məmmədova jurnalistlərə açıqlamasında bildirdi ki, rayon üzrə ümumilikdə 12960 nəfər şagirdin təlim-tərbiyəsi ilə 2136 müəllim məşğul olur. Bildirildi ki, Füzuli rayonu üzrə ümumilikdə 81 təhsil müəssisəsi var. Rayon müəllimlərinin fəaliyyətini yüksək qiymətləndirən Ramella Məmmədova şagirdlərin də nəticəsindən çox razıdır: **“Hər il xeyli sayda şagirdimiz ali məktəbə qəbul olur. Bu il 504 nəfər müxtəlif ali təhsil müəssisələrinə qəbul olaraq tələbə adını qazanıb. Şagirdlərimiz respublika üzrə keçirilən fənn olimpiadalarında iştirak edərək layiqli yerlər qazanırlar”.**

Daha sonra əsgərlər döyüş hazırlığı səviyyəsini nümayiş etdiriblər, şagirdlər tərəfindən bayrağımız haqqında mahnılar ifa olunub.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

**Gələn ilin dövlət büdcəsi zərfinin Milli Məclis komitələrində müzakirələri zamanı maliyyə naziri Samir Şərifov bir sıra maraqlı açıqlamalar verib. S.Şərifovun dediyinə görə, 2019-cu ildə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əmək haqlarının artırılması qərarı verilib.**

# Ekspertlər nazirin "şad və bəd" xəbərlərini şərh etdilər

## Büdcə təşkilatlarında işləyənlərin məvacibi və pensiya müavinətləri artırılacaq; bəs icbari tibbi sığortanın tətbiqi niyə bir il uzadılır?


Samir Şərifov


Vüqar Bayramov

Bunun üçün dövlət büdcəsində 620 milyon manat məbləğində vəsait nəzərdə tutulub. Nazir qeyd edib ki, eyni zamanda pensiya təminatı sahəsində, əlavə sosial müdafiə tədbirləri üçün 110 milyon manatın ayrılması da nəzərdə tutulub.

**Maliyyə naziri onu da qeyd edib ki, gələn il sosial ipotekanın əhatə dairəsi genişləndiriləcək:** "Ancaq nəzərə alınmalıdır ki, dövlət bunu hədsiz edə bilmir. Gələn ilin dövlət büdcəsi layihəsində bu məqsədlər üçün (güzəştli mənzillərlə təminat) 162 milyon manat vəsaitin ayrılması nəzərə tutulur. Bundan əlavə, hərbi qulluqçular üçün ayrı vəsait, şəhid ailələri üçün ayrı vəsait, məcburi köçkünlər üçün də ayrı bir zərfdə vəsait nəzərdə tutulub".

**S.Şərifov deyir ki, təhsil kreditləri ilə bağlı hələ ki mexanizm tapa bilməyiblər:** "Təhsil kreditləri ilə bağlı problem ondadır ki, bu krediti alanların sonradan onu qaytarması böyük sual doğurur. Banklar bu riski öz üzərlərinə götürmək istəmir. Dövlət müdaxilə etsə, biz bəri başdan qəbul edirik ki, bu kreditlər qaytarılmayacaq. Hələ ki mexanizm tapa bilməmişik. Müəyyən cəhdlər var. Deməzdim ki, onlar bu problemi kütləvi həll edəcək". O həmçinin gələn ildən ali təhsilli gənclərin xüsusi çəkisini artırılması üçün əlavə vəsait nəzərdə tutulduğunu bildirib.

**S.Şərifov qeyd edir ki, yeni büdcə qaydası neftdən asılılığın azaldılmasına yönəlib:** "Yəni neft qiymətləri aşağı düşdükdə, biz dərhal xərcləri azaltmalıyıq. Çünki bu, ikinci zərbə kimi endirilmiş olacaq.Yeni büdcə qaydasına riayət etsək, özümüzü təhdidlərdən qorumuş olacağıq. İqtisadi siyasətimizi həyata keçirərkən diqqətli olmalıyıq".

**Nazir gəlirlərlə bağlı risk faktorlarına da toxunub:** "Yeganə risk faktoru digər neft gəlirlərindən əldə ediləcək daxilolmalarımızla bağlı ola bilər. Burada söhbət mənfəət vergisindən gedir. Bunun da ödəyicisi SOCAR-dır. SOCAR-ın isə xarici valyutada daxilolmaları o qədər yüksək deyil. Əvvəl daha çox neft məhsullarını xarici bazarlara yönəldirdisə, hazırda daxili istehlakımız kifayət qədər yüksək sürətlə atrır. Nəticə etibarı ilə məhsullarını daxili bazarda satır. Daxili bazarda isə vergilərimiz Vergilər Nazirliyi tərəfindən müvafiq qaydada yığılacaq".

S.Şərifov bildirib ki, digər risk neftin qiymətinin azalacağı təqdirdə beynəlxalq konsorsiumlar tərəfindən ödənilən mənfəət vergisinin azalması ola bilər. "Biz bunu da əhəmiyyətli risk kimi qiymətləndirmirik" - deyə, nazir qeyd edib.

**Nazirin dediyinə görə, Azərbaycanla qonşu ölkələrin və əsas ticarət tərəfdaşlarının milli valyutalarının ucuzlaşması manatın məzənnəsinə təzyiqləri artırır:** "Neftin qiymətində müəyyən sabitləşmənin Azərbaycana müsbət təsiri ehtimal olunsa da, regiondakı iqtisadi tələtümlərin ölkə iqtisadiyyatına potensial mənfi təsirləri də nəzərdən qaçırılmamalıdır. Qonşu ölkələrin və əsas ticarət tərəfdaşlarımızın milli valyutalarının ucuzlaşması bir tərəfdən yerli istehsalçıların ixrac imkanlarının azalması, digər tərəfdən isə ölkəyə idxalın artımı riskini aktuallaşdırır".

**İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov hesab edir ki, maliyyə nazirinin qeyd etdiyi ölkələrdə milli valyutaların dəyərsizləşməsi manata təzyiqi artırır fikri əslində ekspertlərin uzun müddət gündəmdə saxladığı fikrin rəsmi dəstəklənməsidir:** "Manatın kursu yalnız neftin dünya bazar qiymətindən deyil, eləcə də qeyri-neft ixracatımızda əsas tərəfdaşlarımızın, xüsusən də Rusiya rublunun vəziyyətindən asılıdır. Neftin qiyməti manatın məzənnəsi üçün vacib olsa da, aqrar məhsullarımızın 90, ümumi qeyri-neft ixracatımızın 34 faizinə sahib olan şimal qonşumuzun valyutasının dəyəri bizim üçün az əhəmiyyətli deyil. Eyni zamanda rəsmi statistikaya əsasən, mədən sənayesi ümumi məşğulluğun cəmi 1 faizini formalaşdırır. Fərqli metodologiyadan istifadə olunsa da belə, neft sektorunun məşğulluqda payı 2 faizdən çox deyil. Bu isə o deməkdir ki, məşğulluğun 98 faizi qeyri-neft sektorunda formalaşır. Doğrudur, bu məşğulluğun təxminən 40 faizi büdcə ayırmaları hesabına formalaşsa da, yenə də qeyri-neft ixracatı bizim üçün nəinki iqtisadi, həm də sosial baxımdan əhəmiyyətini qoruyub saxlayır".

**Ekspertin fikrincə, qeyri-neft ixracatındakı müqayisəli üstünlüklərimizin qorunub saxlanması üçün neftdənkənar sektorlar üzrə əsas ticarət tərəfdaşlarımızda valyutaların vəziyyətinin nəzərə alınması çox vacibdir:** "Bu baxımdan da qonşu ölkələrdə mill valyutaların kursu bizim üçün əhəmiyyətlidir. Öncədən proqnozlaşdırdığımız kimi, dekabrda dollara tələb yüksələcək. Amma bütün hallarda son qərarı Mərkəzi Bank verəcək. Bütövlükdə, vətəndaşlarımız iki faktora - neftin dünya bazar qiyməti və qonşu ölkələrin, xüsusən də Rusiya rublunun vəziyyətinə diqqət edərək manata təzyiqin olub-olmadığını müəyyənləşdirə bilərlər".

**Maliyyə nazirinin əhali üçün xoş olmayan bir məlumatı isə icbari tibbi sığortanın bütün ölkə ərazisində tətbiqinin təxirə salınması barədədir: "2019-cu ildə icbari tibbi sığorta sisteminin bütün ölkə üzrə tətbiq olunması üçün yekun hazırlıq işləri həyata keçiriləcək. Sistemin bütün ölkə üzrə tətbiqinə isə 2020-ci ildən başlanması gözlənilir". Onun sözlərinə görə, gələn il icbari tibbi sığortaya 224 milyon manat ayrılması nəzərdə tutulub.**

**V.Bayramov icbari tibbi sığortanın tətbiqinin daha bir il uzadılmasının gözlənilən olduğu fikrindədir:** "Bu əslində gözlənilən idi. Çünki hələlik dövlət xəstəxanaları tam olaraq icbari tibbi sığortanın tətbiqinə hazır deyil. Bu sığorta növünün tətbiqi üçün qeyri-leqal məşğulluğun minimumlaşdırılmasına, sığorta şirkətləri ilə hospitalların münasibətlərinin tənzimlənməsinə ehtiyac var. Sığorta paketlərinin məbləği, ödənişin işçi və işəgötürən arasında necə bölüşdürülməsi kimi məsələlər də açıq qalıb".

**İqtisadçı-alim, İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin sədri Azər Mehtiyev isə hesab edir ki, ölkədə icbari tibbi sığortanın bir islahat kimi gözdən salınması prosesi gedir:** "Bu məsələ ilə bağlı aydınlıq gətirilməli məqamlar çoxdur: icbari tibbi sığortanın tətbiq olunduğu ərazilərdə hansı nəticələr əldə edilib? Hansı ciddi problemlər, çətinliklər meydana çıxıb ki, bütün ölkə üzrə tətbiqini yenidən yubadırlar? Bütün bunlarla bağlı cəmiyyətə bir açıqlama verilməlidir. Hökumət hesab edirsə ki, pilot qaydada icra edərək bütün problemləri yoluna qoyub sonra rahat yola çıxa biləcək, səhv düşünürlər. Çünki bu, çox ağır bir prosesdir. Dünyanın heç bir yerində pilot qaydada tətbiq etməklə bütün problemləri əvvəlcədən müəyyənləşdirmək mümkün olmayıb. Hamı prosesə başlayıb, tədricən meydana çıxan çətinlikləri həll edib, təkmilləşmələr aparıb. Buna görə də prosesə başlamağın zamanı çatıb da, keçib də".

**İqtisadçı-alimin fikrincə, indiki halda təxirəsalınmanın həqiqətən qarşıya çıxan çətinliklərlə, yoxsa icbari tibbi sığortanın tətbiqinə qarşı olan qüvvələrin müqaviməti ilə bağlı olduğunu müəyyənləşdirmək çətindir:** "Faktiki olaraq, bu mühüm islahatın gözdən salınması prosesi gedir. İslahata qarşı olan qüvvələr gələn il də bir problem çıxardaraq onun tətbiqini, ümumiyyətlə, gündəmdən çıxara da bilərlər".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Zibili çıxmış seqment



Samir SARI

**Onlardan hamı qorxur. Hətta odioz-odioz nazirlər də, mafioz-mafioz məmurlar da, yaşlı-başlı deputatlar da, 20-30 ilin jurnalistləri də, partiya sədrləri də, QHT rəhbərləri də, telekanallardan düşməyən müğənnilər də, bir sözlə, reputasiya dərdi çəkən hər kəs.**

Ölkənin ictimai-siyasi gündəmini əslində onlar müəyyənləşdirirlər. Bu gün nə müzakirə olunacaq, kim söyüləcək, kim öyüləcək, kimin siyasi karyerası məhv ediləcək - hamısı onlarlıqdır.

Kimdir onlar? Bəziləri onların adına "zombilər" deyir, bəziləri - "trollar". "Siyasi fəallar" deyənlər də var.

Mark Zukerberq "Feysbuk"u onlardan ötrü icad edib. Hər halda, bizim ölkədə, oxumuş adamlar demişkən, Azərbaycan seqmentində belədir. Onların hamısının bu seqmentdə səhifələri var. Bəzilərinin ayrı-ayrı adlarla iki-üç səhifəsi var. Şəriətə uyğun olaraq 4 arvad saxlayanlar kimi, şəraitə uyğun olaraq, 4, bəzən 5-6 altı səhifə saxlayanlar da tapılır.

Onların məqsədi virtual dünyada hökmran mövqedə olmaqdır. Bəziləri hesab edir ki, burada hakimiyyəti ələ keçirəndən sonra real hakimiyyəti də götürmək olar.

Əkə-bükə qəzetlər, yekə-yekə telekanallar onların fəaliyyət göstərdiyi sosial şəbəkənin yanında yalandır. Elə bir gün olmaz ki, hansısa güclü nazirlik, nüfuzlu şirkət, dövlət strukturu xüsusi bəyanat yayaraq "sosial şəbəkədə yayılan" nəyisə təkzib etməsin. Bu da o zaman olur ki, fəallardan biri skrinşot, şəkil, səs yazısı, videogörüntü paylaşır, kimisə hədəf taxtasına çıxarır, ardınca yüzlərlə fəal eyni postu paylaşır. Tənqid, təhqir, söyüş, latayır, qarğış lavası sellənib gedir.

Bəzən gündəmdə heç nə olmur, özləri demişkən, heç bir deputat "quşlamır", heç bir ziyalı "qatıqlamır", elə olanda bir az çətin olur, amma yenə də nəsə tapılır, lap adi bir statusu, şərhi skrinşot edir, yeni pəstəha çıxarırlar.

Onlar təkcə gündəm müəyyən edən deyillər, həm də dissidentdirlər, əxlaq-namus, vətən, bayraq, haqq-ədalət keşikçiləridir, qadın və uşaq qoruqçularıdır. Bəziləri din, mənəviyyat, adət-ənənə pasibanlarıdır, onlara qarşı gələnlərin yeddi arxa dönənlərinə söyüş popurrisi təşkil edir, lənət yağdırır, ən yumşaq halda, kimlərisə Allaha tapşırırlar.

Elə qruplar var, cəhalətə, xurafata qarşıdırlar, dilinə "bismillah" gələnin dədəsini dalına şəlləyirlər.

Ona görə də hamı onlardan qorxur. Elə olur ki, iş gərəyi bir deputata, ziyalıya zəng edirik ki, filan mövzuya dair fikirlərinizi öyrənmək istəyirik, adam deyir, başınıza dönüm, fikrim belədir, amma xahiş edirəm, yazmayın. Soruşuruq, niyə? Cavab verir ki, yazsanız, Feysbukda atamın goruna söyəcəklər. Elə ziyalı da var, yaşı 80-i keçmiş anasına söyülməsindən, daha dəqiqi, qarının virtual cinsi təcavüzə məruz qoyulacağından çəkinir.

Əvvəllər tez-tez müxtəlif məsələlərə aid maraqlı statuslar yazan dostlar vardı. Fikir verirəm ki, ta yazmırlar. Niyəsini soruşuram. Biri deyir, bir şey yazanda başım ağrıyır, pis-pis şərhlər yazır, söyürlər. Deyirəm, dostluqdan çıxar, blok et. Deyir: "Elə edirəm, amma kimsə skrinşot edib, paylaşır, bir də görürəm, məni tanımayan, mənim də tanımadığım adamlar öz səhifələrində dalımca pis-pis söyüşlər yazırlar, salamatı heç nə yazmamaqdır. Belədə başım-qulağım dinc olur".

Bu səbəbdən sosial şəbəkədə öz-özünü blok edən, yəni səhifəsini donduran, birdəfəlik bağlayanlar var.

And içirlər ki, SSRİ kimi imperiyanın tankının önündə dik duran, başları AzTV-nin məşhur ifşa verilişlərində dairəyə alınan hərəkatçılar, siyasətçilər var ki, məhz trolların qabağından qaçır, onların qorxusundan bəzən öz iddiasını ortaya qoymur və ya mövqeyindən geri çəkilir.

Camaat abrına qısılır. Tənqid-filan boş şeydir. Ona çox adam öyrəncəlidir. Adamlar kütləvi şəkildə söyülməyə tablaşa bilmirlər.

Bəs bu işin axırı necə olacaq? Dəbdir, keçəcək? Yoxsa "fəal"lar bir gün ağıl-kamala gəlib söyüşdən imtina edəcəklər?

Heç biri olmayacaq. Ara yerdə ölkədə polemika, debat deyilən şey qalmayacaq. Ya bir gün belə şeylərin üstündə kiminsə ağzı cırılacaq, tikiş görəcək. Ən pisi isə odur ki, axırda sosial şəbəkənin milli seqmentini dağıdacaqlar. Ondan sonra hamının canı dincələcək.

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

# "Sanksiyalardan sonra əlimizi-qolumuzu sallayıb, oturub baxmayacağıq"

## İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə:
## "Bu embarqolar İrana qarşı elan olunmuş müharibədir"

**İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə ilə müsahibə təşəbbüsümüz ötən ildən olsa da, hər dəfə bir səbəbdən təxirə düşürdü. Ancaq bu dəfə səfirliyin yeni mətbuat katibi Seyid Əli Musəvinin cəhdləri nəticə verdi. Müsahibəmiz, necə deyərlər, xüsusi bir təqvimə təsadüf edirdi, ABŞ-ın İrana qarşı növbəti, amerikalıların təbirincə, "misli-bərabəri" olmayan sanksiyalarının qüvvəyə minməsindən bir gün sonra İranın Azərbaycandakı səfiri ilə görüşdük. Təbii ki, suallarımız sanksiyalar, onun İrana, eləcə də Azərbaycana və regiona mümkün təsiri barədə oldu.**

***- Müsahibəyə razılıq verdiyiniz üçün təşəkkür edirəm. Bu həftənin əvvəlindən başlayaraq ABŞ İrana qarşı yeni, Vaşinqtonun dediyi kimi, "tayı-bərabəri" olmayan sanksiyaların tətbiqinə başlayıb. Bilmək istərdik, İran dövləti Amerika sanksiyalarına necə hazırlaşıb, hansı cavab addımları olacaq?***

- Çox sağ olun. Mən əvvəlcə bütün xalqlara, cümlədən İran və Azərbaycan xalqlarına xoşbəxtlik və səadət arzulayıram. Təbii ki, biz bu sanksiyalara çoxdan hazırlaşırdıq və bu sanksiyaları gözləyirdik. Amerika bizim xalqla uzun illərdir mübarizə aparır. Ümumiyyətlə, ABŞ hansısa ölkənin müstəqil olmasını istəmir, onu özündən asılı etməyə çalışır. Və bizimlə mübarizəsinin tarixi yeni deyil, 60 il əvvələ gedib çıxır. 1950-ci illərdə bizim qanuni şəkildə, xalq tərəfindən seçilmiş baş nazirimiz vardı, doktor Məhəmməd Müsəddiq. O zaman ABŞ hökuməti qanuni, millətin və Milli Məclisin iradəsi ilə seçilmiş hökuməti devirdi, onun yerinə yenidən şahın mütləqiyyət rejimini gətirdilər. Bundan da kifayətlənmədilər. İnqilaba qədər İranda yüzlərlə müşavir adı ilə adamlarını saxlayıb ölkəni idarə edirdilər. İstər hərbi, istər iqtisadi və siyasi sahədə söz sahibi amerikalı müşavirlər idi. İnqilabdan sonra isə İrana təzyiqlər etməyə başladılar, bizim pullarımıza həbs qoydular. Eləcə də İraqla müharibə zamanı İraqa dəstək verdilər, silah-sursat, hətta hərbi təyyarələr verdilər.

İndi isə bildiyiniz kimi, İranın nüvə proqramı ilə bağlı 6 ölkə - Rusiya, Çin, Almaniya, Britaniya, Fransa, ABŞ ilə iki il danışıqlar aparıldı. Nəticədə 2015-ci ildə bir müqavilə imzalandı. Və bu müqaviləni BMT də təsdiqlədi. Ancaq ABŞ-da yeni prezident gələn kimi bunun hamısını yerə vurdu və müqavilədən imtina etdi. Amma biz bunu gözləyirdik. Çünki dediyim kimi, ABŞ-ın bizə qarşı münasibətini 60 ildən çoxdur bilirdik və özümüzü hazırlamışdıq. Biz bu hadisəyə siyasi hadisə kimi deyil, bir müharibə kimi baxırıq. Bu embarqolar İrana qarşı elan olunmuş müharibədir. Onlar istəyirlər ki, bizim neft satmağımıza mane olsunlar, İran xalqı dərman vasitələrindən məhrum olsun, kənd təsərrüfatımız zərər görsün, ölkə ağır zərbə alsın. Amma bu mümkün deyil. İranın minlərlə zavod-fabriki var, 80 milyondan çox əhalisi, 5 milyona yaxın tələbəsi var, böyük universitetləri, elmi-tədqiqat mərkəzləri var. Biz çalışacağıq ki, həm öz imkanlarımız, həm də dost ölkələrin yardımı ilə bu sanksiyaları zəiflədək. Rusiya, Türkiyə və bəzi qonşu ölkələr bizə yardım edir. Daha əvvəl də ediblər. Planlarımız var, onların bəzisini açıqlamaq istəmirik. Çünki Amerika dövləti o ölkələrə təzyiq edir, sıxıntı yaşadır. Biz isə bizə görə dostlarımızın əziyyət çəkməsini istəmirik.

Əlbəttə ki, neft satışımız da davam edəcək. Yeni neft müştəriləri də tapmışıq. Bundan sonra Avropa Birliyi ilə də yaxından əməkdaşlıq edəcəyik, nüvə anlaşmasının davam etməsinə nail olacağıq.

***- Qonşu ölkələrlə bağlı gözlənti nədir? Azərbaycan və Rusiyadan necə davranış gözləyir? Türkiyə ilə bundan əvvəlki sanksiyalar zamanı ciddi əməkdaşlıq oldu, bu dəfə necə, olacaqmı?***

- Qeyd etdiyim kimi, biz bu vəziyyətə hazırlıqlıyıq. Eyni zamanda qonşularımızla yaxından əməkdaşlığı davam etdirəcəyik. Ancaq qonşularımızın sıxıntı yaşamasını istəmirik. Artıq bir sıra qonşu ölkələr də mövqeyini açıqlayıb, media vasitəsilə bəyan ediblər ki, bəzi sanksiyalara əməl etməyəcəklər. Təbii ki, biz onların vəziyyətini nəzərə alırıq. İstəmirik dostlarımız çətin vəziyyətə düşsünlər, lakin bunu deyirik ki, bu çətin günlərdə dostlarımızdan gözləntilərimiz çoxdur.

***- İran və Azərbaycan arasında bir sıra müştərək iqtisadi layihələr var. O cümlədən Azərbaycanın 500 milyon dollar ayırdığı "Cənub dəhlizi" dəmir yolu tikintisi var. Bu layihələrin taleyi necə olacaq? Bu mövzuda Bakı ilə məsləhətləşmələr olur?***

- Danışıqlarımız, müzakirələr olur. Məsələn, son olaraq Astarada stansiyanın tikintisi ilə bağlı danışıqlar aparılıb. Hazırda o stansiyanın tikintisi tam sürətlə davam edir. Digər istiqamətlərdə də işlər davam edir. Bu, çox böyük bir layihədir, danışıqlar, müzakirələr, qarşılıqlı razılaşdırmalar olur. Ona görə də proses özü zaman alır. Amma dayanmaqdan söhbət gedə bilməz.

***- Yeni layihələrin hamısı qüvvəsindədir?***

- Bəli, bütün layihələr davam edir.

***- Embarqolar İran-Ermənistan əlaqələrinə necə təsir edəcək?***

- O barədə mənim dəqiq məlumatım yoxdur. Mənim iş yerim Azərbaycandır. Bildiyiniz kimi, keçən həftə Türkiyədə xarici işlər nazirlərinin toplantısı oldu. Bu toplantı zamanı həm cənab Elmar Məmmədyarov, həm də Mövlud Çavuşoğlu İranla həmrəyliklərini ifadə etdilər. Bəyan etdilər ki, İran və "altılıq" ölkələri arasında imzalanmış və BMT-nin təsdiq etdiyi müqaviləni dəstəkləyirlər. Azərbaycan XİN bu gün də sanksiyalarla bağlı öz mövqeyini bəyan edib. Mən bu mövqeyə görə, Azərbaycan rəhbərliyinə, xarici işlər nazirinə minnətdarlığımı bildirirəm.





***- Bu sualı ona görə verdim ki, ABŞ prezidentinin xarici siyasət və milli təhlükəsizlik üzrə müşaviri Con Bolton ötən həftə Cənubi Qafqaza səfər etdi. Boltonun Bakı və İrəvanda apardığı danışıqlarda əsas mövzulardan biri də İrana qarşı ABŞ embarqoları idi. Bundan sonra həm baş nazir Paşinyan, həm də erməni mediası İranla Ermənistan sərhədlərinin bağlana biləcəyindən yazır. Bu məsələ ilə bağlı rəsmi Tehranın mövqeyi necədir? Sərhədlərin bağlanması məsələsi gündəmə gələrsə, İran Ermənistanla qaz satışı və digər layihələri dayandıra bilərmi?***

- Biz buna ciddi baxmırıq. Ancaq bu səfərin Azərbaycan hissəsinə münasibətimi bildirə bilərəm. Boltonun regiona səfəri çox da uğurlu olmadı. Üstəlik, Bolton öz çıxışında da bildirdi ki, bu prosesdən müttəfiq ölkələrin zərər görməsini istəmir. Bu səbəbdən də Amerika region ölkələrinə qarşı ciddi təzyiq etməyəcək İran mövzusunda. Eyni zamanda İran da öz qonşuları ilə əlaqələrinin zədələnməməsini, xətər görməməsini istəyir. İran bütün qonşu ölkələrlə normal münasibətlərin qurulmasında, eləcə də özgələrin bu əlaqələrə təsir etməməsində maraqlıdır. Xüsusən də Azərbaycanla əlaqələrin qorunub saxlanması, zədələnməməsini istəyir. Bizim Azərbaycanla həm prezidentlər, həm də xarici işlər nazirləri səviyyəsində səmimi, dostluq münasibətlərinə dayanan əlaqələr var. Ümid edirik ki, kənardan səfərə gələnlər bu əlaqələrə təsir edə bilməyəcək.

***- Yuxarıda da qeyd etdiniz, İstanbul sammitində İran bir daha Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini dəstəklədi. Təbii ki, sanksiyaların başlaması bütövlükdə regionumuz üçün yeni bir hərbi-siyasi vəziyyətin yaranması mənasına gəlir. Bizi isə hər zaman Qarabağ münaqişəsinin taleyi maraqlandırır. Necə düşünürsünüz, Qarabağ münaqişəsi ilə bağlı Tehranın siyasətində hər hansı bir dəyişiklik ola bilərmi?***

- İranın xarici işlər naziri Qarabağ münaqişəsi ilə bağlı mövqeyini qəti şəkildə ortaya qoydu. Bizim XİN rəhbəri bildirdi ki, İran Qarabağ münaqişəsinin sülh yolu ilə həllini dəstəkləyir. Eyni zamanda münaqişənin sülh yolu ilə həll olunmasında üzərimizə düşəni etməyə hazırıq. Beynəlxalq hüquq və normalar çərçivəsində. Əlbəttə, biz müharibə görmüş, onun acılarını yaşamış bir xalqıq. Bölgəmizdə, qonşuluğumuzda yenidən müharibənin başlamasını istəmirik.

***- Sanksiyaların İrana nə qədər zərər vuracağını təxmin edirsiniz?***

- Dəqiq hesablamamışıq, amma təbii ki, zərərləri olacaq. Lakin müstəqil olmağın bir "cəzası" var və biz bu cəzanı çəkməyə hazırlaşmışıq. Bu gün regionumuza baxaq, ölkələr nə vəziyyətdədir. İraqda milli hakimiyyət devrildi, ölkənin nefti, sərvətləri istismar olundu. Bu gün Yəmən qana boyanıb, hər gün nə qədər insan aclıqdan, dərman çatışmazlığından ölür. Əfqanıstanda işğaldan sonra ölkədə nə qədər insan ölüb, yaralanıb və yurd-yuvasından məhrum olub. Bütün bunlar Amerikanın "əl işləridir". Özləri birbaşa olmasa da, kənardan barmaqları olan işlərin nəticəsidir.

İndi Amerikanın sanksiyalarına yalnız İran yox, Çin, Rusiya, Türkiyə və başqa daha neçə ölkələr də məruz qalıb. Əlbəttə, çətindir, bizə də xoş deyil. Amma düşünürük ki, müstəqilliyin də bir bədəli olmalıdır və biz indi o bədəli ödəyirik. Müstəqillik elə də ucuz nemət deyil... Əlbəttə, çalışırıq və çalışacağıq ki, zərər az olsun. Lakin bu ilk deyil, biz tarix boyu bir neçə dəfə amerikalıların zərərini görmüşük. Acı da olsa biz ona hazırıq.

Bildiyiniz kimi, hazırda ABŞ hakimiyyəti özü ölkənin cənub sərhədinə ordu, polis göndərir ki, Latın Amerikasından gələn qaçqınların qarşısını kəssin. Yeni qanun qəbul edirlər, anaları uşaqlarından ayıracaqlar. Bu, Amerika siyasətinin mahiyyətidir. Baxın, dünyanın aparıcı ölkələrinin və BMT-nin iştirakı ilə nüvə anlaşması imzalanıb, ancaq yeni prezident gəldi və bu anlaşmadan imtina etdi. Halbuki hər kəsə aydın idi ki, bu müqavilə yalnız prezidentlərin imzaladığı bir kağız deyil, dövlətlərin arasında imzalanmış sənəddir. ABŞ dövləti Trampdan ibarət deyil.

***- Yeri gəlmişkən, Tramp nədən İrana qarşı bu qədər qəzəblidir? Prezident seçilən kimi İranla nüvə anlaşmasından çıxdı...***

- Açığı, bu barədə xüsusi bir araşdırmamız yoxdur. Ancaq düşünürəm ki, bu məsələdə Trampın çox yaxınında olan yəhudi lobbisinin böyük təsiri var. Çünki İrana qarşı sanksiya amerikalıların marağına uyğun deyil. İran dövləti bir neçə dəfə ən yüksək səviyyədə rəsmən bəyan edib ki, bizim nüvə silahı əldə etmək məqsədimiz yoxdur. Bunu dəfələrlə sübut etmişik. Atom Enerjisi üzrə Beynəlxalq Agentlik də İranın nüvə sazişinə sadiq olduğunu rəsmən təsdiqləyib. Ancaq buna baxmayaraq, heç bir əsas olmadan İrana qarşı sanksiya qərarları qəbul olunub. Bu onu göstərir ki, amerikalılara etimad göstərmək olmaz. İndi deyək ki, biz bu dəfə Trampla anlaşdıq, yeni bri müqavilə imzaladıq. Bəs sonra nə olacaq? Yeni prezident gələndə bu müqaviləyə sadiq olacaqmı? Bunun heç bir təminatı yoxdur. Bunlar beynəlxalq qanunları da saya salmırlar.

***- Tramp elan etmişdi ki, sanksiyaların əsas məqsədlərindən biri İranın Yaxın Şərqdəki fəallığını azaltmaqdır. Sanksiyalar Tehranın Yaxın Şərqdə, Suriya, Fələstin, Livan və digər ölkələrdəki müqavimət qruplarına dəstəyinə təsir edəcəkmi?***

- Təbii ki, biz sanksiyalardan sonra əlimizi-qolumuzu sallayıb, oturub baxmayacağıq. Biz dəqiq bilirik ki, İŞİD-in regiondakı əsas hədəfi İraq, Suriya deyildi, həm də İran idi. Biz öz ölkəmizə çəkilib oturub İŞİD-in nə zaman Tehrana hücum edəcəyini gözləmək fikrində deyilik. Digər tərəfdən, əzilən, məhv edilən insanlara yardım etmək bizim dini-insani vəzifəmizdir. Bunu dövlət marağı üçün etmirik. Bizim Yəməndə hansı marağımız, qazancımız ola bilər? Biz, sadəcə, oradakı insanlara yardım etmək istəyirik. Orada insanlar acından ölür, dərman çatışmır, yoluxucu xəstəliklər yayılıb.

***- İndi Yəmənə yardım etmək mümkündürmü?***

- Birbaşa yardım edə bilmirik, Yəmən mühasirədədir. Ancaq siyasi sahədə dəstəyimiz davam edir. Yəmən məsələsini dünyanın diqqətinə çatdırmağa çalışırıq. Məzlumlara yardım etmək İran İslam İnqilabının əsas məqsədlərindən biridir.

***- 12 il əvvəl İrana qarşı Amerikanın embarqoları vardı. O zaman həm də İrana hərbi müdaxilədən söz edirdilər. İndi də İran müdafiə sistemlərini gücləndirir, həqiqətən müharibə təhlükəsi varmı? Trampın İrana qarşı hərbi əməliyyatlara əmr verməsini Tehranda ehtimal edirlərmi?***

- Belə bir hadisənin olacağını gözləmirik. ABŞ prezidenti daha çox ərəb ölkələrindən pul qoparmaq - İran təhlükəsi ilə ərəbləri qorxudub onlardan daha çox pul, silah və texnika sifarişi almaq istəyir. Bunlar siyasi səhnədə açıq görünür, heç Tramp özü də bunu gizlətmir. Açıq deyir ki, ərəb ölkələrini sağmaq istəyirəm, sizi qoruyuram, buna görə pul verməlisiniz...

Biz öz yolumuzla gedirik. Qonşularımız üçün sülh və sabitliyin tərəfdarıyıq. İran hökuməti hər zaman bəyan edib ki, Azərbaycanın təhlükəsizliyi bizim təhlükəsizliyimizdir. Eyni zamanda biz Türkiyənin də əmin-amanlığına dəstək veririk. Türkiyədə hərbi çevriliş zamanı İran açıq şəkildə hökuməti dəstəklədi.

Regionda əmin-amanlıq bizim üçün böyük əhəmiyyət kəsb edir. Xüsusən də Azərbaycanda. Azərbaycan bizim üçün qonşudan daha irəli, qohum kimidir. Burada olan sabitlik bizim üçün çox mühümdür. Yaxşı əlaqələrimiz var hazırda, bu ilin 10 ayında 1 milyondan çox azərbaycanlı İrana səfər edib. İranda da azərbaycanlılara isti münasibət var, çünki yaxın qohumluq əlaqələri mövcuddur. Ümid edirəm ki, bu münasibətlərə kənar ölkələr təsir edə bilməyəcək.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

**Deputat Aqil Abbas son günlər parlamentdə gedən müzakirələr və cəmiyyətdə dartışma yaradan mövzularla bağlı musavat.com saytının facebook üzərindən gerçəkləşdirdiyi canlı yayım verilişinin qonağı olub. "Yeni Müsavat" həmin müsahibəni təqdim edir.**

# "Mənim bir su köşküm də yoxdur, yeganə ağdamlıyam ki, bu işi bacarmıram"

## Aqil Abbas: "Mənə bu günə kimi hədiyyə verən olmayıb; kimdi deputata hədiyyə verən?"



**"Trolların hücumlarında məqsəd odur ki, heç kim müstəqil sözünü deyə bilməsin, hamının gözünü qırmaqdan gedir söhbət"**

***- Aqil bəy, siz elə müsahiblərdənsiniz ki, dedikləriniz uzun müddət mediada, sosial şəbəkədə müzakirə olunur. Sanki xüsusi olaraq sizi izləyir, sözlərinizə fərqli mənalar verirlər. Bu nə ilə bağlıdır?***

- Bəzən insanın populyarlığı, tanınmağı rol oynayır. Onun danışığında emosional çıxışlar, sözlər olur. Məni sevənlər də çoxdur, sevməyənlər də. Ona görə də dediyim hər hansı sözü başlayırlar fırlatmağa. Çox qəribədir ki, Mirzə Cəlili, Üzeyir Hacıbəyovu, Haqverdiyevi, Ömər Faiq Nemanzadəni, Seyfəddin Dağlını, Anarı yetirən xalqın bütövlükdə yumor hissi yoxdur. İstehza, sarkazmı, ironiyanı ayıra bilmirlər. Sənin yüksək ironiya ilə dediyin sözü başlayırlar başqa formada təqdim etməyə. Mən qarabağlıyam. Azərbaycanda Qarabağ, Şuşa, Ağdam, Şəki kimi zonalarımızın insanlarında isə yumor hissi həddən artıq güclüdür. Adi bir söz onlar üçün maraqlı bir sözdür. Amma bir də baxırsan sənin dediyin kinayəli sözü tuta bilmirlər. Benzinin bahalaşması yadınızdadır? 15 iyuna, ulu öndərin qayıdışı gününə təsadüf edirdi. Mənə zəng elədilər ki, benzinin bahalaşmasına münasibətiniz necədir? Mən də dedim ki, bu günü bayram etmək lazımdır, qiyməti 2 manat, 5 manat etmək lazımdır. Əlavə etdim ki, amma benzinin qiymətini qaldıran qurum gərək onu bu gün etməyəydi. Çünki bu gün qurtuluş günüdür, heç olmasa bunu fikirləşəydilər. Deməli, bunu tutmadılar. Dedilər, Aqil Abbas deyir, benzin 5 manat olsun.

***- Amma bununla belə, bir rəy var ki, Aqil Abbas bu sayaq kritik məqamlarda hakimiyyətə yönələ biləcək təzyiqləri önləyir, qarşısını almağa çalışır. Yəni belə çıxışlar etməklə diqqəti, qəzəbi, aqressiyanı özünə yönəldir, özünü hakimiyyətin qabağına sipər edir.***

- Yalan söhbətdir. Mən heç vaxt özümü hakimiyyətin qabağına sipər eləməmişəm. Eləmək fikrim də yoxdur. Amma bununla belə, hakimiyyətə də, müxalifətə də haqsız hücuma cavabımı vermişəm. Etirazımı da bildirmişəm. Amma haqlı bir etiraz varsa, niyə özümü sipər etməliyəm? Mən bir yazıçıyam, müstəqil və bir qədər də fərqli, orijinal adamam. Yazılarımdan da bu görünür. Özümü sipər edən olsaydım, Ağdamda sipər edərdim, Ağdam da alınmazdı.

***- Son günlər parlamentdə gedən müzakirələr gündəmin əsasını təşkil edib. Xüsusən də deputatlara veriləcək hədiyyənin məbləği ilə bağlı fikir mübadilələri birmənalı qarşılanmadı.***

- Əvvəla, bu, qanunda var ki, deputatlara və məmurlara hədiyyə 55 manatı keçməsin. İndi bu qanunu gündəmə gətirməyin mənasını bilmədim. Ona görə də mənim çıxışım bir qədər emosional və Mirzə Cəlil sayağı oldu. Mən onun yetirməsiyəm. Mən deyirəm ki, bu qanun var. Onu təzədən qaldırmaq və mənim buna bu formada etirazım saytların, sosial şəbəkədəki trolların bir mövzusuna çevrildi. Mən 13 ildir deputatam, mənə hədiyyə verilməyib.

***- Siz götürməmisiz?***

- Yox e, verən yoxdur. Kimdir deputata hədiyyə verən? Amma hədiyyənin müxtəlifliyi var. Tutaq ki, mənim ad günümdür. Dayım oğlu, xalam oğlu... gətirib mənə bir saat, bir qələm, kitab bağışlayır. Bir var gətirib sənə bir deputat, məmur kimi hədiyyə bağışlayalar, işi düşən adam verə bunu. Bir də var sənə heç bir işi düşməyən adam ad günündə hədiyyə versin.

***- Onu necə müəyyənləşdirəcəksiz? Sizə hədiyyə gətirən adamın sonradan işi düşməyəcəyinə əminikmi?***

- Əminəm. Düzdür, sənə bir dost 100 manatlıq bir hədiyyə gətirir. Amma sonradan elə bir iş xahiş edir ki, onu heç 1000 manatla da həll etmək olmur. Belə hallar da baş verir. Mənə belə hədiyyə verilməyib. Mən adətən saat sevənəm, saat bağışlayarlar. Bir də çoxlu qələm bağışlayıblar. O qədər çox ki... Daha çox adam bilmir ki, indi qələmlə yazan yoxdur. Düzdü, mən hələ də yazılarımı qələmlə yazıram. Evdə qələmlərdən muzey yaratmaq olar.

***- Amma parlamentdə hədiyyə mövzusunda "qoyun və budu" ilə bağlı çəkdiyiniz paralel birmənalı qarşılanmadı.***

- Bayaq dedim ki, bir çox müqayisələrimi Mirzə Cəlil sayağı edirəm. Mənim Milli Məclisdə bu günə qədər etdiyim çox çıxışlar olub. Elə həmin gün də xeyli mövzuya münasibət bildirmişəm. Amma onlar qaldı qıraqda, hamı keçdi qoyun tərəfə. Mən zarafatla dedim ki, "bəlkə rayonda biri mənə qoyun hədiyyə etdi, onun budunu götürüb qalanını təhvil verməliyəm?" Tutdular bu sözün ucundan, başladılar müzakirəyə, manşetlərə çıxardılar. Nə var, nə var, vurmağa adam tapıblar. Necə ki, daha öncə soğan məsələsində də bunu etdilər. Ki, görsünlər məni nə qədər adam söyür. Dediklərimi o qədər ciddi qələmə verdilər ki, hətta erməni mətbuatı da mənim bu dediklərimi tərcümə edib, fırlatdı. Biz necə erməniləri oxuyuruq, onlar da bizi oxuyurlar. Erməni mətbuatında bizə sərf edən şeyləri necə qabardırıqsa, onlar da belə edirlər.

***- Bayaq soruşduz ki, indiki ərəfədə deputatların maaş məsələsi niyə gündəmə çıxarılıb. Sizə elə gəlmirmi ki, son zamanlar korrupsioner məmurlarla bağlı halların sayı çoxalıb? Zamirə Hacıyeva məsələsi hazırda daha çox gündəmdədir...***

- Gəlin Zamirə Hacıyeva məsələsində bir fakt deyim. Mən dəfələrlə demişəm, var-dövlətinizi itə etibar etməyin, dosta etibar edin. Bizim imkanlılar gedib pullarını İsveçrə, Belçikaya, nə bilim hansısa kərtənkələlərin bankına etibar edirlər. Ya da elə Londonda. Bu qadın orada 50 milyonluq villa alanda Londondakılar niyə soruşmurdu ki, bu pul haradandır? Çünki onlara sərf edirdi ki, bu villa alınsın, bu pullar banklara köçürülsün, aradan 3-4 ay keçəndən sonra da bu yolla o pullara, villalara əl qoysunlar. Banka pul qoyacaq, puluna həbs qoyacaqlar. İsveçrədəki banka, məsələn. İsveçrədə süpürgəçi nə qədər maaş alır, bilirsizmi? 3500 avro. Adi küçə süpürür, süpürmür e, maşının düyməsini yandırıb-söndürür. Nəyin hesabına bu qədər maaş verir? Nefti var, kənd təsərrüfatı var? Saat buraxır, amma onunla da ölkəni saxlamaq olmaz. Demək ki, banklardakı pulların hesabına. Zeynalabdin Tağıyevdən tutmuş, İran şahından, Musa Nağıyevdən tutmuş, hamısının pulları orada olub. Orada keflə xərcləyirlər. İndi yazırlar ki, Belçika bankından Qəddafinin pulları oğurlanıb. Kim oğurlayıb? Mən də yazdım ki, bizim kənddən əmioğlu zəng edib ki, vallah, mənim xəbərim yoxdur.

***- Aqil bəy, dediyiniz nümunədə oğrunun heçmi günahı yoxdur? Ancaq xarici ölkələr, oradakı banklarmı suçludur?***

- Təbii ki, korrupsiyaya qurşanan adam cəzasını almalıdır. Amma vəzifədə olanda tutulmalıdır. 50 milyon dolları, 2 milyard dolları bir gündə yemək mümkün deyil. Hər il burada yoxlamalar gedir. Onda niyə görmürdülər?

***- Amma bu, ilk belə hal deyil ki. Məmurları vəzifədən çıxarırlar, dərhal sonra məlum olur ki, milyonlar yeyiblər.***

- Çünki vəzifədə olanda ona yaxınlaşmağa qorxurlar. Yaxınlaşan da rüşvətini alır, oturur yerində. Həm də vəzifədə olanda bu rüşvət, korrupsiya faktlarını gizlədə bilir. İmkanları olur, onu ayrı cür sənədləşdirirlər.

***- Parlamentdəki müzakirələrdən söz düşmüşkən, deputat həmkarınız Tahir Kərimlinin dövlət himninin uzunluğu, major tonlarda olması və nəticədə bunun dəyişdirilməsi ilə bağlı verdiyi təklif də birmənalı qarşılanmadı, xeyli qınağa hədəf oldu.***

- Biz özümüzü 1918-ci il cümhuriyyətinin davamçıları sayırıq. Onun bayrağını da, gerbini də, himnini də qəbul eləmişik, ona da hörmətlə yanaşmalıyıq. Bir dəfə Vaqif Səmədoğlu ilə bu barədə danışmışdıq. Himndə "hüququndan keçən əsgər" ifadəsi var, onu Vaqif bəy redaktə edib. Onda dedim ki, himndəki "səndən ötrü can verməyə cümlə gənclər müştaqdır" ifadəsindən belə çıxır ki, Vətən üçün balalarımız ölmüdür. Yəni millət, sən, mən yox, gənclər müştaqdır. O da bunu izah etdi. Orada da bir-iki söz dəyişib. Məsələ onun 4 dəqiqə olmasında deyil. 4 dəqiqə də ayaq üstə dura bilərik, 5 dəqiqə də. Tahir Kərimli ziyalıdır, insandır, Azərbaycanın müstəqillik qazanmasında rolu olan insandır, istiqlalçı deputatdır. Zamanında partiya biletini cırıb, hakimlikdən istefa verib. Mən onun subyektiv fikrini qəbul etmirəm, siz də etməyə bilərsiz. Amma buna görə hərə bir qılınc götürüb düşüb, Tahir Kərimlinin üstünə. Kimsə bir söz deyə bilməz? Heç nə ehkam deyil. Bu cür hücumlarda məqsəd odur ki, heç kim müstəqil sözünü deyə bilməsin. Hamının gözünü qırmaqdan gedir söhbət. Trolların da məqsədi elə budur. Himnə gəlincə, insanı ağrıdan budur ki, bizim rəsmi tədbirlərdə himnimiz çalınanda çox adam oxumur. Niyə oxumursan, qardaş? Əsas oxuyan jurnalistlər, ziyalılar, yazıçılar olur. Baxın, məmurlar oxumur. O himnə görə sən gəlib kresloda oturmusan.

***- Son zamanlar cəmiyyətdə rus dilinin nüfuzunun artması, buna qarşı olaraq dövlət dili ilə bağlı qanun layihəsinin hazırlanması cəmiyyətin müzakirə etdiyi mövzulardandır.***

- Buna səbəb rus dilində təhsilin daha güclü olmasıdır. Bundan başqa, rus dilinin arealı böyükdür. Necə olur ki, ingilis dilində məktəblərə etiraz edən yoxdur? Amma rus dili deyən kimi etiraz başlanır. Başqa məqsəd yoxdursa, o zaman ingilisdilli məktəblərə də etiraz edin. Rus dili qonşu dilidir və əlaqələrimiz də güclüdür. Ona görə də Rusiya ilə münasibətlər başqa formadadır. Bir də var ki, adamlar Azərbaycan dilində danışmır və danışa bilmir.

***- Bunlardan biri də xarici işlər naziri Elmar Məmmədyarovdur ki, onun danışığı da yetərincə tənqid edildi. Amma bəzi deputatlar onu müdafiə etdilər ki, nazirin tutduğu vəzifə onun digər dillərdə daha mükəmməl danışmasını tələb edir.***

- Zamanında Elçibəyi tənqid edirdilər ki, rus dilini yaxşı bilmir. O, hər zaman Azərbaycan dilində danışırdı. Elçibəy 3 il Misirdə ərəb-rus tərcüməçisi olub. Necə rus dilini bilməyə bilər? Bu adam öz dilində danışmaq istəyirdi. Hər bir dövlət başçısı rəsmi protokolda öz dilində danışır. Prezident İlham Əliyev ingilis dilini mükəmməl bilir. Amma rəsmi protokolda Azərbaycan dilində mükəmməl danışır. Elmar Məmmədyarov 15-16 ildir ki, nazirdir, amma doğma dilində danışa bilmir. Arqument gətirirlər ki, rus məktəbində oxuyub. Axı Bakıda oxuyub. Möhtərəm prezident hansı dildə oxuyub? Rus dilində. Sonra gedib Moskvada rus dilində müdafiə edib, elmlər namizədi adını alıb. Bəs necə oldu ki, bu qədər təmiz, səlis Azərbaycan dilində danışır? Heç olmasa möhtərəm prezidentdən örnək götürün də.

***- Oxucu suallarına da keçək. Oxucularımız soruşur ki, deputatlar zaman-zaman məvaciblərindən narazılıq edirlər. Siz öz məvacibinizdən razısızmı?***

- Razıyam. Bəzi insanlar deyirlər ki, deputatların maaşı çoxdur. Necə çoxdur? Prokurordan, hakimdən az maaş alırıq. Amma deputatın hansı vəziyyətdə olmasından xəbərsizdirlər. Təkcə bu ay mən iki dəfə Ağcabədiyə, Füzuliyə getmişəm. Hər səfərim üçün 300 manat pul xərcləməliyəm. Yol pulum elə 100 manat edir, orada yardıma ehtiyacı olan insanlara əl uzadıram, bu insanları pis vəziyyətdə qoya bilmərəm. Elə ay olur ki, Ağcabədiyə 3 dəfə gedirəm. Ora gedəndə Ağdama da gedirəm, oradakı insanlarımıza da baş çəkirəm. Deyirlər ki, 1750 manat maaş alırıq.

***- Amma belə bir təsəvvür var ki, deputatların obyektləri, əlavə gəlir mənbələri çoxdur.***

- Kimin var, onu yazsınlar. Mənim ən böyük obyektim qələmimdir. Bir "Ədalət" qəzetim var ki, oradan da böyük pullar qazanmaq mümkün deyil. Qəzet pul qazanmır, pulu yeyir. Mənim bir su köşküm də yoxdur, buna marağım yoxdur. Atam mənə həmişə deyirdi ki, nəbadə ticarətlə məşğul olasan. Yeganə ağdamlıyam ki, bu işi bacarmıram.

***- Aqil bəy, oxucuların suallarından biri də budur: "Siz illərdir medianın da öndə gedən simalarındansınız. Necə düşünürsüz, jurnalist rüşvət almalıdırmı? Ona edilən hörməti, ya da qarşılıqsız yardımı qəbul etməlidirmi?"***

- Heç kəs jurnalistə qarşılıqsız hörmət etmir. Təmənna olur. Jurnalist almalı deyil. O məmura da sual versinlər ki, jurnalistə niyə rüşvət verirsən? Alan da günahkardır, amma rüşvət verəndən daha az. Jurnalist o məmurdan daha az cinayət edir. Məmur, tutaq ki, 400 milyon rüşvət yeyib, amma hansısa jurnalistin cibinə 200 manat pul qoyurlar. Mən sovet jurnalistikasının yetirməsiyəm. Nəinki jurnalist, heç kim rüşvət almamalıdır.

***- Siz rüşvət almısız jurnalist olduğunuz dövrdə?***

- Hər halda, indiki qədər sərt mövqedə olmamışam. Kolxoz sədrini, "ispalkomu" buna görə döyməmişəm. (Gülür).

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**



# Amerikanın və bizim sanksiyalar

Zamin HACI
zaminhaci@gmail.com

"Nə üçün kişvəri-İran
Olur şəxsiyyətə qurban?
Məgər bayquş sevir viran,
Və ya tale zəbun oldu?
Səbəb boynu yoğun oldu!"

*(Sabir)*

**Donald Tramp söhbəti hərlətdi-fırlatdı, nəhayət, İrana sanksiyaları qoydu. Deyirlər bu, indiyə qədər cənub qonşumuza qoyulmuş sanksiyaların ən kəskinidir. Neft sata bilməyəcək, texnologiya, maşın, hətta dərman ala bilməyəcəklər. Artıq İranın iqtisadiyyatında bunun təsirləri hiss olunur, onsuz dəyərdən düşmüş yerli valyuta - rial ölməkdədir. Şübhəsiz, bunun bizə də təsiri olacaqdır. Qonşuluqdan başqa, orada 40 milyona yaxın soydaşımız yaşayır. Şimali Azərbaycanda çox ailələrin Arazın o tayı ilə hansısa keçmiş və indiki qohumluq bağları var.**

Artıq maliyyə naziri Samir müəllim qonşu valyutaların ağır günə düşməsinin manata təzyiqləri artırdığından danışıbdır. Bunu anlaşılan dilə çevirsək, manatı növbəti devalvasiya gözləyə bilər. Son iki devalvasiyanın yaralarını yalayıb sağaltmamış, manat daha bir zərbədən hansı kökə düşər - bunu düşünmək belə istəmirik. Guya düşünsək nə olacaq? Əsas odur hökumət düşünsün, bizdən onsuz da soruşan yoxdur ayın neçəsidir.

Trampın İran sanksiyaları hansısa nəticələr verəcəkmi? Təcrübə bunun ehtimallarının az olduğunu göstərir, çünki İran 1985-ci ildən bəri müxtəlif Amerika sanksiyaları altındadır, ancaq molla rejiminin siyasətində hansısa dəyişiklik görünmür. Doğrudur, arada sanksiyalara BMT-nin qoşulması (2010-cu ildə) hardasa effekt verdi, İran nüvə proqramını dayandırdı. Bundan sonra Barak Obama İrana sanksiyaları qaldırmış, ölkəyə müəyyən fürsət vermişdi. Ancaq İran nəinki bu fürsət pəncərəsindən yararlandı, əksinə, ölkənin yenidən qazanmağa başladığı pulları pis məqsədlər üçün işlətməyə girişdi. Suriyada diktatora hərbi-iqtisadi dəstək verməkdən, Yəməndə savaşa qədər. Bu bir az da bizim bir vaxt yaşadığımız SSRİ-nin pis təcrübələrini yada salır. Ötən əsrin 70-ci illərində dünya, Qərb SSRİ ilə yaxınlaşma xətti tutmuşdu. Amerika prezidenti Nikson Moskvaya səfər etmişdi, amerikalılar ruslarla "Soyuz-Apollon" birgə kosmik uçuş proqramı başlamışdılar. Bu, soyuq savaş erası üçün olduqca fantastik, uğurlu görünən siyasi mənzərə idi, insanlara ümid vermişdi. Ancaq SSRİ, kommunist rejimi bu fürsəti necə dəyərləndirdi? Əfqanıstana qoşun yeritməklə.

Bu arada, bizim hökumətin iqtisadi sanksiyalarının ABŞ sanksiyalarına nisbətdə daha uğurlu nəticələr verdiyini mütləq qeyd etməliyik. Britaniya enerji sektoru ilə qardaş münasibətlərimiz sayəsində biz indi Londonda istənilən oğrumuzu tutub dama basırıq. Beynəlxalq bankirimiz Cahangir müəllim Bakıda, arvadı isə Londonda dustaqdır. Həyata bax... Gör necə ibrətlik əhvalatdır. Arzu edərdik ardı gəlsin, xalqımızın pullarını oğurlayan hər kəs Zamirə xalanın taleyini yaşasın, ilahi, amin! Zamirə xanım 500 min funt girov qoyub ev dustaqlığına çıxmaq istəsə də, ingilis prokurorlar haqlı olaraq buna da icazə verməyiblər. Yeri gəlmişkən, xanımın vəkilləri vasitəsilə məhkəmədə qaldırdığı arqument saxtakarlığın, yalanın qırmızılığı ilə diqqətimi çəkdi. Təsəvvür edin, adam deyir, məni Azərbaycana təhvil verməyin, çünki orada mən adam oğrularının qurbanı olmuşam. Ancaq haçan? Əsas məsələ budur axı. Polkovnik Hacı Məmmədov Zamirəni 2005-ci ildə oğurlamışdı, iki aydan sonra azad edilmişdi. Bundan sonra adamın qızı MTN şefinin oğluna ərə gedib, öz əri isə Beynəlxalq Bankı aşsüzənə döndərib. Cibində limitsiz bank kartlarını gəzdirdiyin ölkəyə "orada məni oğurlayıblar, qayıda bilmərəm" desən, adamın ağzı əyilməlidir, dodağına Azərbaycan zəhmətkeşləri hesabına qoyduğu silikon partlamalıdır.

Qaldı bəzi yoldaşların "bunlardan çox yeyənlər var, azadlıqda gəzir" deməsinə... Ata sözü var, deyir, qoyunu qoyun ayağından asarlar, keçini keçi ayağından. Bizə nə lazımdır? Əsas odur qanunsuzluq edənlər cəza alsın, kimliyindən asılı olmayaraq. O cümlədən, dövründən asılı olmayaraq. Bax, hazırda Almaniyada 94 yaşlı kişinin məhkəməsi gedir. Onu 1944-cü ildə Polşadakı faşist əsir düşərgəsində nəzarətçi işləməkdə suçlayırlar. Deməli, ədalət bəzən çox gec də olsa qalib gəlir. Deməli, qan həmişə batmır. Şər tələskəndir, xeyir isə astagəldir - bu, onların önəmli fərqlərindən biridir.

Bir az romantik bitirdik, ancaq zərəri yoxdur.

# Hərb maşınımız güclənir - Azərbaycan yeni silahların istehsalına başladı

## Bakının işğalçıya qarşı "qamçı və kökə" taktikası davam edir; düşmən isə Azərbaycanın xoşməramlı siqnallarına, "hamını hamıya dəyişmək" təklifinə adekvat cavab verə bilmir - kritik gəlişmə

**Azərbaycanda HP tipli, 7.62 kalibrə malik hücum təyinatlı pulemyotların seriya istehsalına başlanılıb. "Yeni Müsavat"ın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, yeni atıcı silahların istehsalı müdafiə sənayesinin müəssisəsində qurulub.**



"HP-7.62" pulemyotları döyüş zamanı düşmənin canlı qüvvəsini yaxın məsafədən məhv eləmək, həmçinin rəqibin atəş vasitələrinə zərər vurmaq üçün nəzərdə tutulub. Yerli istehsallı bu silah növünün nümunəsi sentyabrda Bakıda keçirilən ADEX-2018 Beynəlxalq Müdafiə Sənayesi Sərgisində nümayiş etdirilmişdi.

*****

Beləcə, Azərbaycan özünün hərbi-sənaye kompleksini gücləndirmək yönündə daha bir mühüm addım atıb. Bütövlükdə diqqətçəkicidir ki, xüsusən də son illər ölkəmizdə həm hərbi zavodların sayı, o sırada birgə hərbi müəssisələrin sayı artır, həm də Azərbaycan öz hərbi parkını daha da modernləşdirmək üçün qardaş Türkiyə, İsrail, Belarus və digər dost-tərəfdaş ölkələrlə hərbi-texniki əməkdaşlığı genişləndirir. Düşmənin qorxulu röyasına çevrilmiş Pilotsuz Uçan Aparatların (PUA) istehsalı da o qəbildəndir.

Bütün bu pozitiv gəlişmələr, hərbi istehsalla bağlı uğurlar, Azərbaycanın xarici silahlardan azalmaqda olan asılılığı sözsüz ki, işğalçı Ermənistan üzərində ölkəmizin hərbi üstünlüyünü daha da artırır. Eyni zamanda bunlar iqtisadi böhran vəziyyətində olan düşmən tərəfə aydın mesajdır ki, Azərbaycanla birbaşa hərbi toqquşmadan o, məğlub qismində ayrılmağa məhkumdur. Ötən ay Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Çexiyaya, onun müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general Nəcməddin Sadıkovun isə İsrailə çoxgünlük səfərləri də İrəvana özünəməxsus xəbərdarlıq mesajları idi.

*****

Bakı eyni zamanda Dağlıq Qarabağ konfliktinin dinc yolla həlli siyasətinə sadiqdir. Ona görə yox ki, biz savaşdan ehtiyat edirik. Vurğulandığı kimi, Azərbaycan Ermənistan üzərində yetərli hərbi üstünlüyə malikdir. Sadəcə, ölkəmiz məsələdə sırf humanizm prinsiplərini əsas götürür, hər iki tərəfdən gənc insanların, əsgər-zabitlərin, gələcək ailə başçılarının ölümünü arzulamır.

Humanizmdən söz düşmüşkən, az öncə Azərbaycan düşmən tərəfə əsirləri "hamının hamıya" prinsipi ilə dəyişməyi təklif edib. Ancaq Ermənistanın müdafiə naziri səlahiyyətlərini icra edən, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri David Tonoyan Azərbaycan tərəfinin bu təklifi barədə mətbuatdan oxuduğunu və rəsmi təklif almadıqlarını bildirib.

Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından isə bildirilir ki, 29 aprel 2016-cı il tarixdə Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) ünvanladığı məktubunda hazırda hər iki tərəfdə saxlanılan şəxslərin dərhal azad edilməsi və gələcəkdə əsir-girov götürülən şəxslərin, eyni zamanda meyitlərin 3 gündən gec olmayaraq qaytarılması ilə bağlı saziş layihəsinin hazırlanmasını təklif edib. BQXK bu təklifin Ermənistan tərəfinə çatdırıldığını və saziş layihəsi üzərində müvafiq iş apardığını bildirib. Dövlət Komissiyası müzakirəyə çıxarılacaq əsas məsələnin hazırda tərəflərdə saxlanılan şəxslərin qısa müddətdə "hamının-hamıya" prinsipi ilə azad edilməsi mövzusu olacağı təqdirdə, Azərbaycan tərəfinin görüşə hazır olduğunu BQXK həmsədrlərinin diqqətinə çatdırıb. Qarşı tərəfdən isə Bakının bu xoşməramlı çağırışına hələ ki pozitiv reaksiya yoxdur.

*****

Bundan əlavə, ay yarım öncə Düşənbədə keçirilən MDB sammiti çərçivəsində Azərbaycan və Ermənistan rəhbərləri - İlham Əliyev və Nikol Paşinyan arasında həm atəşkəs, həm də operativ əlaqə ilə bağlı şifahi anlaşma əldə olunub ki, bu da təmas xəttində gərginliyi azaldıb. Əslində bu da Bakının İrəvana pozitiv jestidir ki, işğalçı ölkədə növbədənkənar seçkilər yekunlaşa bilsin.

Yeri dəlmişkən, təmas xəttində gərginliyin azaldığını qarşı tərəf etiraf edir.

"Azərbaycan və erməni tərəfləri ön cəbhədə baş verənlərlə bağlı bir-birini məlumatlandırır". "Yeni Müsavat"ın erməni qaynağına istinadən verdiyi xəbərə görə, bunu nazir əvəzi David Tonoyan deyib. Onun sözlərinə görə, Ermənistanın Müdafiə Nazirliyi Azərbaycan tərəfi ilə lazım olan anda birbaşa telefon əlaqəsi saxlayır.

Tonoyan bildirib ki, Düşənbə görüşündən sonra cəbhə xəttində gərginlik həqiqətən azalıb. "İki ölkənin müdafiə nazirlikləri arasında artıq birbaşa telefon əlaqəsi mövcuddur. Lakin bu, nazirlər səviyyəsində yox, müvafiq vəzifəli şəxslər səviyyəsindədir. Əlaqə ikitərəfli rejimdə işləyir", - deyə Tonoyan qeyd edib. Ancaq onun sözlərinə görə, hələ ki İlham Əliyevlə Paşinyan arasında birbaşa telefon əlaqəsi olmayıb.

Bakının xoşməramlı davranışı öz yerində, qarşı tərəfin buna adekvat reaksiyası hələ ki gözə dəymir. Elə Nikol Paşinyanın işğal altındakı Qarabağa təzəcə başa çatan çoxgünlük qanunsuz səfəri, səfər çərçivəsində onun səngərdə erməni əsgərləri və Ermənistanın güc strukturlarının rəhbərləri ilə şelfi çəkərək, altından "Bu - bizik, Ermənistan ordusu" yazması da az şey demir.

Üstəlik, Paşinyan Qarabağdan gedən kimi işğalçı qüvvələrin ərazimizdə növbəti hərbi təlimi başlayıb. Erməni mənbələrinin məlumatına görə, noyabrın 10-dək davam edəcək qanunsuz təlimlərdə əsas məqsəd Ermənistanın işğal bölgəsində dislokasiya edilmiş birliklərinin döyüş qabiliyyətini artırmaqdır...

*****

Bakının xoşməramlı siqnallarına düşmən tərəfin reaksiyası bundan ibarətdir. Odur ki, Azərbaycan Ermənistana qarşı "qamçı və kökə" siyasətini davam etdirmək zorundadır. Yəni həm işğalçı ölkəyə qarşı sərt blokada siyasəti və hərbi quruculuq işlərinə davam edəcək, həm də ona xoşməramlı siqnallar göndəriləcək, humanizm jestləri ediləcək.

Sözsüz ki, başlıca hədəfimiz torpaqlarımızı dinc yolla, bu, mümkün olmazsa, silah gücünə azad eləməkdir. Azərbaycan öz hərb maşınını, yerli hərbi sənaye kompleksini ən əvvəl buna görə daima gücləndirir. Silahları da vitrinə qoymaq üçün almırıq və ya istehsal eləmirik. Bu xüsusda Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev Ağdamdakı son görüşündə ümid etdiyini bildirib ki, "Ermənistan rəhbərliyi bölgədə yaranmış vəziyyəti düzgün təhlil edərək öz işğalçı qüvvələrini tezliklə torpaqlarımızdan çıxaracaq, əks təqdirdə, istənilən variant mümkündür və biz istənilən varianta hazırıq"...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

**Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyevlə bu ölkədəki sabiq səfirimiz Tələt Əliyev arasındakı qarşıdurma səngimək bilmir. A.Xudiyevin T.Əliyevin 2001-10-cu illərdə səfir olarkən 2,4 milyon yeyintiyə yol verməsi barədə ittiham irəli sürməsi və bununla bağlı Ukraynanın Daxili İşlər Nazirliyinə və Baş Prokurorluğuna müraciət etməsi qalmaqala çevrilib.**



Azər Xudiyev

# Sabiq XİN rəhbəri Ukraynadakı diplomatlarımızın pul davasından danışdı

## Tofiq Zülfüqarov: "Səfir özbaşına maliyyə yoxlaması keçirə bilməz"

**Artıq Azərbaycan XİN bu məsələ ilə bağlı araşdırmalara başlayıb. Bu barədə uzun illər Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olmuş, hazırda Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov qalmaqalla bağlı modern.az saytına danışarkən məlumat verib:** "Ukraynada keçirilən prezident və parlament seçkilərində iştirak etmişəm. Səfərlər zamanı Tələt Əliyevlə də görüşlərim olub. O, Ukraynanın keçmiş prezidentləri Leonid Kuçma, Viktor Yuşşenko, Viktor Yanukoviçlə, o cümlədən digər yüksək vəzifəli şəxslərlə əlaqələr quran biri olub. Hesab edirəm ki, səfir kimi vəzifəsinin öhdəsindən layiqincə də gəlib. Bir səfir kimi Ukraynada azərbaycanlıların himayədarı, dayağı olub. Ancaq indi Tələt Əliyev səfir olduğu dövrdə, yeni 2008-ci ildə səfirlik binasının təmirinə ayrılmış 2,4 milyon dollar vəsaiti mənimsədiyinə, binanın təmir olunmadığına görə ittiham olunur. Əgər belə bir hal olubsa da, ay yoldaş Azər Xudiyev, səni ora səfir göndəriblər, sən Azərbaycanın səfirisən, Ukraynanın səfiri deyilsən ki... Sən niyə orada Azərbaycanla bağlı məsələ haqda Ukraynanın erməni əsilli daxili işlər naziri Arsen Avakova şikayət edirsən? Demək ki, sənin şikayətin məqsədlidir. Buradan da görünür ki, Azər Xudiyevin bu hərəkətləri şəxsi qərəzlikdir".



**E.İbrahimov bildirib ki, diplomat, məmur qərəzli olmamalıdır:** "Hər şeyə düzgün qiymət verməli və seçməlidir. İndi, ay Azər Xudiyev, sən uzun illər orada çalışmış azərbaycanlı diplomatı aparıb erməni əsilli daxili işlər nazirinin əlinə verirsən ki, bunu məhv elə. Düzünü deyim ki, mən Azər Xudiyevin bu hərəkətlərini bir azərbaycanlı kimi qəbul edə bilmirəm. Mətbuatdan da tanış oldum ki, Azərbaycanın Ukraynadakı səfirliyi ilə bağlı məsələ Xarici İşlər Nazirliyi tərəfindən araşdırılır. Əgər belə bir hallar olubsa, Azər Xudiyev Azərbaycanın müvafiq orqanlarına məlumat verməliydi. Sənin əgər damarlarında azərbaycanlı qanı axırsa, belə etməməliydin. Hesab edirəm ki, hər bir səfir təmsil etdiyi bölgədə Azərbaycanın güzgüsüdür. O, təmsil etdiyi ölkədə azərbaycanlılarla görüşməli, problemləri ilə yaxından maraqlanmalıdır. Ta aparıb bir azərbaycanlını erməni əsilli daxili işlər nazirinin əlinə verməməlidir. Düşünürəm ki, Xarici İşlər Nazirliyi bu məsələni şəffaf şəkildə araşdıracaq. Mən burada ona görə Tələt Əliyevi müdafiə edirəm ki, onu tanıyıram. Əgər kiminsə bu işdə günahı varsa, cəzasını çəkməlidir. Amma o cəzanı azərbaycanlı verməlidir, erməni yox. Bunu Azər Xudiyev başa düşməli idi. Ona görə də mən belə adamların səfir olmasına təəssüf edirəm. Yəqin ki, Xarici İşlər Nazirliyi gələcəkdə bizim diplomatik korpuslarda çalışan bu cür adamlarla bağlı ciddi tədbirlər görəcək".

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a açıqlamasında bir çox mətləblərin üstünü açdı:** "Burada əsas məsələ Xarici İşlər Nazirliyinin indi araşdırmalara başlamasıdır. Görünür, bundan öncə mənimsəmə faktı olmayıb. Demək, səfir özbaşına hansısa nəticələrə gəlib. Orada hansısa nöqsanlar varsa, səfirliklərə aid qurumlar mövcuddur. Onlar qərar çıxarmalı və bunun əsasında səfir bu və ya digər addımlar ata bilər. Azərbaycan səfirliyi üstündə qanunlarımız durur. Ondan irəli gələn addımlar atılır. Əgər yeyinti halları varsa, Azərbaycanın hüquq-mühafizə orqanları bunu araşdırmalıdır. Yeri gələndə o ölkənin yerli hüquq-mühafizə orqanları ilə də əməkdaşlıq qurmaq olar. Səfirlik, sadəcə, buna şərait yaratmalıdır. Bunun üçün Azər Xudiyevin Ukrayna Baş Prokurorluğuna və Daxili İşlər Nazirliyinə müraciətinə nə gərək var idi? Azərbaycan Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun Xarici Əlaqələr İdarəsi var. Bunların vasitəsilə işlər görülür".

**Sabiq XİN rəhbəri səfirimizin Ukraynanın erməni əsilli daxili işlər nazirinə müraciətinə də mövqe bildirdi:** "Burada erməni faktorundan əvvəl qanunlara riayət olunmalıdır. Erməni və ya digər millətin nümayəndəsi olması burada əsas deyil. Əsas olan bizə aid olan hüquqların kiməsə verilməsidir. Dövlətimizə aid suveren hüquqlar var. Nəyə görə sən bu suveren hüquqları kiməsə verirsən? Səfirin də hüquqları var. Amma səfir məhkəmə, müstəntiq ola bilməz. Təəssüflər olsun ki, nazirlikdən gizli şəkildə belə bir addım atılıb. Təlimat yoxdursa, bu çox ciddi bir səhvdir. Tələt Əliyev və Azər Xudiyevin fəaliyyətindəki nöqsanların bu və ya digər şəkildə ictimailəşməsi mümkündür. Xarici İşlər Nazirliyi elə bir qurumdur ki, nöqsanları gərək xidməti imkanlar daxilində araşdırsın və sonra nəticə çıxarsın. Mən hər iki şəxsin yaxşı və ya pis işləmələri barədə nəsə deyə bilmərəm. Bu mənim təbiətimdən də uzaqdır. Bunlar qanunazidd fikirlər də ola bilər. Ciddi yoxlamalardan sonra addımlar atılır. Səfir özbaşına maliyyə yoxlaması keçirə bilməz. Araşdırmalardan sonra Azər Xudiyevin geri çağırılıb-çağırılmayacağı yönündə hər hansı bir fikir söyləyə bilmərəm. Qanuna riayət edərkən bu məsələni qanun çərçivəsində həll etmək lazımdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Ağ Evin qara siyahısı



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Bir dövlətin gücü ən əvvəl onun valyutasının gücü ilə ölçülür, nəinki ordusu, əsgərlərinin sayı ilə. Çin dünyada ən böyük sayda orduya sahibdir, amma Çinin yox, ABŞ-ın ordusu dünya birincisidir. Tək səbəb dollardır. Amerikanı dünya hökmranı edən də məhz onun ən möhkəm, ən güclü pula sahib olmasıdır. Bunu ABŞ-ın dostları da, rəqibləri də etiraf efir. Hamı etiraf edir - kimi açıq, kimi ürəyində...**

İqtisadçılara görə, milli valyutanı sabit, güclü edən onun arxasında dayanan keyfiyyətli milli məhsul, əmtəədir. Bunu da ABŞ hələ ki hamıdan yaxşı bacarır. Onun istehsal elədiyi bütün məhsullar keyfiyyətlidir. Silahları da öz yerində. Səbəbini iqtisadçı alimlərin, sosioloqların, geosiyasətçilərin, hətta cəmiyyət mühəndislərinin araşdıracağı bir mövzudur.

Ancaq amerikanların belə bir deyimi var: "Ölümdən, bir də vergidən qaçmaq mümkün deyil". Yəni ABŞ-da vergi sistemi, cəmiyyət və dövlət həyatını tənzimləyən, azad bazar iqtisadiyyatını tənzimləyən digər qanunlar sistemi, hüquqi mexanizmlər o qədər dəqiq, işlək qurulub ki, prezidentdən tutmuş, sıravı işçiyə kimi heç kəs onlardan yayınmağı ağlının ucundan belə keçirmir. ABŞ-da kağız üstündə qalan qanun yoxdur, əməl olunmayan Konstitusiya da mövcud deyil. Məsələ bu qədər bəsit.

Yekunu ortada: güclü, öncül ABŞ dolları. Şəksiz ki, ABŞ-ın dünyadakı hökmranlığı məhz dolların hökmranlığıdır. Dollar 1 nömrəli valyuta olmaqdan çıxarsa, Amerika da o saat zirvədən düşər. Ancaq hələlik bu, üfüqdə görünmür. ABŞ iqtisadiyyatı dünyada qabaqcıl yerini, qlobal ÜDM-də ən böyük payını saxlamaqdadır. Bir politoloqun dediyi kimi, hazırda ölkələrin hamısı bu və ya başqa şəkildə ABŞ-a xərac ödəyir - ya maddi, ya da mənəvi şəkildə.

Amerika da dolların yaratdığı müstəsna üstünlükdən, unikal fürsətdən bacardıqca istifadə edir. Kefi istədiyi kimi "qara" və "ağ siyahılar" tərtib edir. Əfsus ki, bu bənzərsiz üstünlüyündən o, heç də həmişə bəşəri dəyərlər naminə, dünyada haqq-ədaləti bərpa eləmək üçün istifadə eləmir. Yaxın Şərqdə PKK-çılara verdiyi dəstək, Qaşıqçı olayında tutduğu mövqe, Azərbaycana qarşı hələ də ləğv edilməyən bədnam 907-ci düzəliş və Qarabağ məsələsinə "balanslı" yanaşma bunun bəzi dəlillərindəndir.

İki gün qabaq ABŞ-ın İrana qarşı sanksiyalarının ikinci, daha sərt dalğasının işə salınması da əslinə qalsa, təkcə İrana öz yerini göstərmək üçün deyil, həm də başqalarına, hətta Amerikanın dost-müttəfiqlərinə görk üçündür...

Bu gün Ağ Evin "qara siyahısı"nda əsas üç ölkədir - İran, Rusiya, Şimali Koreya. Rusiya siyahıya postsovet məkanında öz qonşularına qarşı işğalçılıq, konfliktlər və qarışıqlıq yaratmaq siyasətinə, regional və qlobal təhlükəsizliyə təhdidlər yaratmağa görə salınıb. İran məsələsi də bəlli.

Əlbəttə, könül istərdi ki, Rusiya ilə birgə Azərbaycana qarşı eyni siyasəti yürüdən işğalçı Ermənistan da Ağ Evin "qara siyahısı"na düşəydi. Bunu hər şeydən öncə ABŞ-ın 1 nömrəli təhlükə elan elədiyi Rusiya ilə Ermənistanın müttəfiq olması, sonuncunun bölgədə Kremlin yeganə forpostu missiyası daşıması zəruri edir.

Təəssüf ki, bunu görmürük. Əksinə, Ermənistan yox, ərazisinin 20%-i işğala məruz qalan Azərbaycan ABŞ-ın dövlət yardımlarını qadağan edən bədnam "907-ci düzəliş"ə məruz qalıb. Azərbaycan əvəzinə sanki Ermənistan Ağ Evin "dostluğu"nda yer alıb. Bu da Azərbaycanı özünə tərəfdaş sayan ABŞ-ın bizi daim üzən ikili siyasəti. Doğrudan da güclü həmişə haqlı deyilmiş...

Könül həm də istərdi ki, Azərbaycan Amerikanın "ağ siyahısı"nda yer alsın. Düzdü, İrana qarşı sanksiyalarla bağlı Ağ Ev qardaş Türkiyəyə, Azərbaycana, bir sıra digər ölkələrə güzəştlər edib. Əsas odur ABŞ-ın "qara siyahısı"nda olmayasan. Çünki Amerika bir ölkə ilə düşünüşdüsə, əl çəkmir. İran, Şimali Koreya, SSRİ (Rusiya), Kuba nümunələri var...

Odur ki, Ermənistanı ABŞ-ın qəzəbinə gətirməmiz lazım. Heç olmasa, işğalçı ölkənin Amerikaya bizdən daha yaxın düşməsinə imkan verməməliyik. Xüsusən də Qarabağa görə...

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

# Jurnalistlərin sorğusundan yayınan məmurlar: qanunun tələbi sərtdir...

**Günümüzdə tez-tez müxtəlif dövlət qurumlarının medianın sorğusuna cavab vermədiyinin, məmurların görülən işlə bağlı ictimaiyyəti məlumatlandırmadığının şahidi oluruq. Təbii ki, ictimaiyyətin maarifləndirilməsi və məlumatlandırılması baxımından jurnalistlərin rolu cəmiyyətdə əvəzedilməzdir. Jurnalistikanın funksiyalarından biri də ictimai nəzarətdir. Jurnalistlər hər gün hansısa məlumatı qısa müddət ərzində dəqiqləşdirib, ictimaiyyətə çatdırmağa çalışırlar. Lakin bəzi məmurlar jurnalistlərin sorğusuna cavab vermirlər, hətta hesabat əvəzinə, acı, az qala borclu çıxaran cavablar verirlər. Hansı ki, hesabatlılıq, şəffaflıq qanunun tələbi və ölkə rəhbərliyinin daim çağırış etdiyi məsələdir...**



**Əsabəli Mustafayev:** "Jurnalistin sorğusuna cavab verməyən məmuru məhkəməyə vermək olar"



**Qulu Məhərrəmli:** "Məlumat mənbələri, o cümlədən də məmurlar jurnalistlərin sorğularını cavablandırmalıdır"

Bu günlərdə Göyçayda keçirilən Nar festivalının sponsorunun kimliyi ilə bağlı jurnalistlərin sualına cavab verərkən, Göyçay Rayon İcra Hakimiyyətinin sektor müdiri-baş mühasib Kamran Kərimov jurnalistlə söhbətində heyrət doğuran bir ton sərgiləyib. Sitat: **"Festival keçdi, kimə nə aidiyyətı var vəsaiti kim ödəyib? Festival gözəl keçdi, nəyi araşdırırsınız? Sizin nə haqqınız var ki, baş tutan festival haqqında araşdırma aparırsınız? Kim maraqlanır ki, nə qədər vəsait xərclənib festivala? İctimaiyyətə lazım deyil kim keçirib festivalı, kim nə qədər vəsait xərcləyib? Siz bunu araşdıra bilmərsiniz. Bu sizin səlahiyyətinizdə deyil. İctimaiyyətin gözünə nə soxursunuz ki, kim nə qədər pul xərcləyib?"**

Əslində bu cür münasibət göstərmək məmurun təmsil etdiyi quruma hörmətsizliyidir. Adətən bu cür yanlış davranışları aşağı ranqlı məmurlar sərgiləyir və bununla yuxarı instansiyaları da, belə demək mümkünsə, hədəfə gətirirlər. Məmurlar həm də qəbul etməli, başa düşməlidir ki, jurnalistlə normal davranmaq onun öz peşəsinə və təmsil etdiyi struktura hörməti deməkdir...

Yada salaq ki, 2015-ci ildə Binəqədidə yanan binanın təmir işlərinə hansı tikinti şirkətinin qatılacağı ilə bağlı jurnalistin sualına, o zaman baş nazirin müavini vəzifəsini icra edən Abid Şərifov da aşağıdakı tərzdə cavab vermişdi:

**"Nə dəxli var sənə?! Nə üçün bilməlisən kimdi?! Alabala... Sonra?! Müəyyən olunur ki, finalkəsdi, filankəsdi də. Bunu biz müəyyən edirik, bunun "pressa"ya dəxli var, ay oğul? Sonra sualınız var?!"**

Hansı ki, bu məsələni araşdırmaq məhz mətbuatın işidir. Məmur hesab etməməlidir ki, o, qanunsuzluqlar edə və sağlam, mədəni şəkildə araşdırma aparan, sual verən jurnalistlə istədiyi tonda da danışa bilər. Biz ötənlərdə media ilə normal davranış göstərə bilməyən məmurların sonralar acı tale yaşadıqlarının da şahidi olmuşuq...

İnternetdə axtarış verən zaman bu cür cavablara çox rast gəlirik. Əksər hallarda jurnalistlər məmurların dövlət büdcəsinin hesabına gördükləri işlə bağlı detallı məlumat ala bilmirlər. Hüquqşünaslar bildirirlər ki, bu cür danışan məmurlar qanundan xəbərsizdirlər.

**"Yeni Müsavat"a açıqlamasında hüquqşünas Əsabəli Mustafayev bildirib ki, məsələ ilə bağlı İnzibati Xətalar Məcəlləsinin 382-ci maddəsində hər şey qeyd olunub:** "Maddənin birinci hissəsində göstərilir ki, qanunla müəyyən edilmiş müddətdə jurnalist sorğusuna cavab verməməyə görə 200 manatdan 300 manata qədər cərimə tətbiq edilir. Maddənin ikinci hissəsində isə verilir ki, qanunla qorunan informasiyalar istisna olmaqla, jurnalistə informasiyanın verilməsinə məhdudiyyətlər qoymağa və ya informasiya verilməsindən imtina etməyə görə isə 300 manatdan 500 manata qədər cərimə nəzərdə tutulur. İnformasiya sorğusuna, suala cavab verilmədiyi halda jurnalist məhkəməyə müraciət edə bilər. Çünki məmur jurnalistin sorğusuna cavab verməlidir. Verməyibsə, İnzibati İqtisad Məhkəməsinə müraciət edib, məhkəmə qərarı ilə cavabvermə öhdəliyini onun boynuna qoydurmaq olar. Məhkəmə qərarını icra etmədiyi halda, artıq onun barəsində cinayət işi qaldırmaq olar. Yəni hüquqi baxımdan istiqamət budur".

**Media eksperti Qulu Məhərrəmli isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, "KİV haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunlara uyğun olaraq, məlumat mənbələri, o cümlədən də məmurlar jurnalistlərin sorğularını cavablandırmalıdır:** "Ancaq təəssüf ki, bu gün məmurlar, eləcə də onların bəzilərinin özlərinə qala kimi düzəltdikləri mətbuat xidmətləri o funksiyanı yerinə yetirmirlər. Əksinə, jurnalistlərlə dövlət qurumları arasında baryer çəkirlər. Əgər məlumat verilmirsə, jurnalistlərin sualları cavablandırılmırsa, qanunda nəzərdə tutulmuş sanksiyalar var ki, məmurlar buna uyğun olaraq inzibati qaydada məsuliyyət daşıyırlar. Hesab edirəm ki, məmurların jurnalistlərdən ehtiyat etməməsi onunla bağlıdır ki, bu gün Azərbaycan mətbuatının tənqidi çıxışları lazımi əks-səda doğurmur".

**Hazırda dünyada da mətbuata qarşı prosesləri görməkdəyik. Məsələn, ABŞ prezidenti Tramp mediaya heç bir açıqlama verməyib, mesajlarını, fikirlərini yalnız sosial şəbəkə vasitəsilə ictimaiyyətə çatdırır. Bu xüsusda də fikir bildirən Qulu Məhərrəmli söyləyib ki, əslində Amerika cəmiyyəti ilə bizim cəmiyyəti müzakirə etmək olmaz:** "Azərbaycanda mətbuatın bu vəziyyətə düşməsinin səbəbi bizim öz cəmiyyətimizdə gedən proseslərdir. Əlbəttə ki, Tramp da mediaya basqılar edib, jurnalistləri aşağılamağa çalışır. Lakin o, buna görə Amerikada çox ciddi şəkildə basqı ilə üzləşir. Amerika cəmiyyəti lazımi təpkini verir. Bu baxımdan düşünürəm ki, mövcud vəziyyət Amerika üçün keçicidir. Çünki Amerikada ictimai nəzarət çox güclüdür. Ötən illə müqayisədə Trampın da mediaya münasibətində çox ciddi müsbət dəyişiklik var. Biz isə özümüzü onlarla müqayisə etməməliyik. ABŞ-da mətbuatın çox böyük gücü var. Bizdə isə mətbuatın gücü olmadığı üçün məmurlar medianı saymır, reaksiya vermir. Baxın ki, məmurların Azərbaycan əleyhinə fikirləri, çıxışları olur. Lakin buna da heç bir ictimai təpki, reaksiya yoxdur. Ona görə də məmurlar indiki vaxtda özlərini rahat hesab edirlər".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Əmanətlərin tam sığortalanması davam etməlidir"

## Ekspertlər deyir ki, müvafiq qanunun müddətinin uzadılmaması əhalinin banklardan əmanətlərini geri çəkməsi ilə nəticələnə, banklarda kapitallaşma ilə bağlı problemlər yarada bilər

**Neftin dünya bazar qiymətlərində kəskin enişin baş verməsindən ən çox zərər görən sahələrdən birincisi bank sektorudur. İqtisadiyyatın inkişafında mühüm rol oynamalı olan banklar bu gün də 3 il əvvəl yaranmış problemlərdən tam qurtula bilməyiblər.**

Qeyd edək ki, bank sektoruna inamın azaldığı, əhalinin öz əmanətlərini banklardan çəkdiyi bir vaxtda hökumət məsələyə müdaxilə edərək bütün əmanətlərin qorunmasını nəzərdə tutan qanun qəbul etmişdi. 2016-cı ilin martından qüvvəyə minən qanuna əsasən fizləri "Əmanətlərin sığortalanması haqqında" Qanunun 8.1.20-ci maddəsinə müvafiq olaraq Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər məbləğindən asılı olmayaraq bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa (lisenziyaya) malik olan fondun iştirakçı bankları tərəfindən 3 (üç) il müddətində tam sığortalanır.

Sənədə görə, bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa (lisenziyaya) malik olan banklarda mövcud olan qorunan əmanətçilərin əmanətləri üzrə illik faiz dərəcələri Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasının müəyyən etdiyi illik faiz dərəcəsi həddindən yuxarı olduqda, həmin əmanətçilər əmanətləri üzrə tam sığorta təminatı əldə etmək istədikdə, onların müraciəti əsasında müddəti qurtarmamış əmanət müqavilələrində, bu qanunun 3-cü maddəsinə uyğun olaraq, müvafiq dəyişikliklər edilməlidir.

Müvafiq olaraq müddəti qurtarmamış əmanət müqavilələrində dəyişikliklər edildikdə, dəyişikliklər edildiyi günə qüvvədə olan müqavilənin şərtlərinə uyğun olaraq faizlər tam məbləğdə hesablanıb ödənilir.

Banklara dəstək mexanizmlərindən birini nəzərdə tutan bu qanunun qüvvəsi gələn ilin martında bitir. Qanunun qüvvədə olduğu müddətdə əmanətlərin banklardan kütləvi çəkilməsi prosesi dayanıb, yerləşdirilən əmanətlərin həcmində artım müşahidə olunub. Mərkəzi Bankın rəsmi məlumatına görə, bu il yanvarın 1-nə əhalinin banklarda olan əmanətlərinin həcmi 7 milyard 561.2 milyon manat təşkil edib. Oktyabrın 1-nə isə əmanətlərin həcmi 8 milyard 114,9 milyon manata çatıb. Maliyyə Bazarlarına Nəzarət Palatasının yaydığı hesabata görə, yalnız sentyabr ayında fiziki şəxslərin əmanətləri 2.2 faiz (175 milyon manat) artıb. Ümumilikdə, 2018-ci ilin 9 ayında fiziki şəxslərin əmanətləri 7.6 faiz artıb.

Əmanətlərlə bağlı müşahidə olunan daha bir müsbət dinamika xarici valyutada olan əmanətlərin həcmindəki artım dinamikasının zəifləməsidir. Belə ki, bu ilin 9 ayında belə əmanətlər cəmi 2 faiz artaraq 5 milyard 128,9 milyon manat təşkil edib. Son nəticədə xarici valyutada olan əmanətlərin həcmi ümumi əmanət portfelinin 62,5 faizini tutub. Halbuki 2017-ci ilin yekunları üzrə xarici valyutada əmanətlərin xüsusi çəkisi 66,5 faiz təşkil edirdi.



2018-ci ilin yanvar-sentyabr aylarında əhalinin milli valyutada əmanətlərinin həcmi isə 21,2 faiz - 3 milyard 70,2 milyon manatadək artıb. Bu isə bütün əmanət portfelinin 37,5 faizi deməkdir.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov hesab edir ki, "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun qüvvədə olma müddəti artırılmalıdır. Bu barədə parlamentin iclasında danışan millət vəkili qanunun gələn ilin mart ayında qüvvədən düşəcəyini qeyd edib:** "Bu qanun əmanətlərin 3 il müddətində tam sığortalanmasını nəzərdə tuturdu ki, bu müddət də gələn ilin martında yekunlaşır. Xahiş edirəm ki, ölkə prezidenti sənədin müddətini uzatsın. Çünki bank sektorunda vəziyyət ağırdır. Müddətin uzadılmaması əhalinin banklardan əmanətlərini geri çəkməsi ilə nəticələnə, banklarda kapitallaşma ilə bağlı problemlər yarada bilər. Onsuz da ağır vəziyyətdə olan bank sektorunda vəziyyət daha da ağırlaşa bilər".

**İqtisadçı-ekspert Samir Əliyev bildirir ki, 2016-cı ildə sözügedən qanunun qəbul olunması düzgün atılmış addım idi:** "Həmin vaxt vəziyyət çox gərgin idi, əmanətlərin kütləvi şəkildə banklardan çəkilməsi prosesi başlanmışdı. Buna görə də hökumət həm bütün əmanətlərin sığortalanması, həm də sığortalanan əmanətlər üzrə faiz dərəcəsinin 12-dən 15-ə qaldırılması istiqamətində addımlar atdı. Düşünürəm ki, çox yerində və düzgün addımlar idi. İndi bank sektorunda bir sabitləşmə müşahidə edilməkdədir. Bağlanma prosesi dayanıb. Əgər qanunun qüvvəsi uzadılmasa, əvvəlki kimi həcmi 30 min manata qədər olan əmanətlər sığortalanacaq".

**Ekspert hesab edir ki, qanunun qüvvədə olma müddəti uzadılmaqla bərabər, ona müəyyən dəyişikliklər də olunmalıdır:** "İlk növbədə illik faiz dərəcələri 12-10 faizə endirilə bilər. Çünki ölkədə əmanət faizləri kəskin azalıb, 10 faizin altındadır. Bankların bu faizləri daha da aşağı salacağı gözlənilir, çünki yığdıqları əmanətləri yerləşdirməkdə çətinlik çəkirlər. Dünyada tək-tək faizə münasibətdə sığorta sistemi var. Əksər ölkələrdə sığorta əmanətin həcminə görə müəyyənləşir. Bizdə isə həm əmanətin həcminə görə, həm də faizinə görə tətbiq edilir. Düşünürəm ki, minimal hədd qoyulmalıdır. Yəni əmanət faizi artdıqca bankların Əmanətlərin Sığortalanması Fonduna ödədikləri üzvlük haqqı da artırılmalıdır. Bu, bankları əmanət faizləri ilə bağlı daha məsuliyyətli olmağa vadar edər".

**S.Əliyevin fikrincə, əmanətlərin tam sığortalanmasını nəzərdə tutan qanunun müddəti ən azı 1 illik uzadıla bilər.**

**❑ Dünya SAKİT,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

# "Rus NATO"-sunun sammiti ərəfəsində Ermənistanın Qarabağ təxribatı

## İşğalçı ölkə rəhbərliyinin sülhü pozan davranışları davam edir; **politoloq:** "Dağlıq Qarabağda yaşayan ermənilər və hərbçilər də Paşinyan siyasətindən razı deyillər və bu, İrəvan-Xankəndi arasında ciddi qarşıdurma yarada bilər"

**Ermənistanın baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyan noyabrın 8-də Qazaxıstana səfər edəcək. O, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iclasında iştirak etmək üçün Astanaya gedir. "Yeni Müsavat" erməni mətbuatına istinadən xəbər verir ki, Paşinyanın Qazaxıstandakı erməni icması ilə görüşü də planlaşdırılır.**

Qeyd edək ki, N.Paşinyan KTMT-nin toplantısından əvvəlki üç gün ərzində Azərbaycan torpaqlarında "məzuniyyətdə" oldu. Qəfildən Dağlıq Qarabağa gələn Paşinyan burada separatçılarla görüşdü, hərbçilərin və Ermənistanın güc strukturlarının başçılarının iştirakı ilə müşavirə keçirdi.

Bunun ardınca isə 7 noyabrda düşmən Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsində hərbi təlimlərə başladı. Hərbi təlimlər 10 noyabr tarixinə qədər davam edəcək. Publika.az xəbər verir ki, bu təlimlərin Nikol Paşinyanın Qarabağa gəlməsi və təmas xəttində erməni əsgərlərə təlimatlar verməsindən sonra başlanması xüsusi diqqət çəkir. Məlumdur ki, Azərbaycan torpaqlarına yerləşdirilən qoşunlar Ermənistan ordusunun bölmələridir. Paşinyan Qarabağa son gəlişində də əsgərlərlə çəkdirdiyi şelfini "Adımız Ermənistan ordusudur" sözləri ilə sosial şəbəkə hesabında paylaşmışdı. Paşinyanın oğlunun Qarabağda hərbi xidmət keçməsi də İrəvanın illərdir "Qarabağ özünümüdafiə qüvvələri" iddialarının absurd olduğunu göstərir. Bu baxımdan, təlimlərin məhz Paşinyanın göstərişinə əsasən keçirildiyi şübhəsizdir. Bu hadisələr fonunda Ermənistanın gizli şəkildə müharibəyə hazırlaşdığı ehtimalları da gündəmdədir. Paşinyanın Qarabağda olarkən "hər cür vəziyyətə hazır olmağı" tövsiyə etməsi düşmənin konstruktivlikdən çox uzaq olduğunu nümayiş etdirir. Qeyd edək ki, elə təlimlərin gedişində Ermənistan ordusu 4 hərbiçisini itirib. Erməni ordusuna məxsus "KamAZ" markalı yük maşını Gorus-Qubadlı yolunun 39-cu kilometrliyində qəzaya düşüb. Qəza nəticəsində 4 erməni əsgəri ölüb, çoxsaylı yaralılar var. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovanisyan faktı təsdiqləyib. Ölən hərbçilərin adları da açıqlanıb.

N.Paşinyanın məhz Qarabağdakı hay-küylü səfərinin ardınca Astanaya yola düşməsi təbii ki, seçkiqabağı təbliğatın tərkib hissəsidir. Erməni baş nazir dekabrdakı seçkilər üçün əvvəlcədən xal toplamayacağı halda, fəlakətli durumla üz-üzə qalacağını yaxşı anlayır. Ancaq indi onu başqa bir sınaq gözləyir. N.Paşinyan Rusiyanın iradəsinin ziddinə olaraq 1 mart 2008-ci il hadisələrinə görə ittiham olunan general Yuri Xaçaturovun KTMT-nin baş katibi postundan geri çağırılmasının ardınca digər bir erməni hərbçini bu quruma göndərmək niyyətindədir. Əgər buna nail olsa, o, seçkilər ərəfəsində dividentlər əldə edə biləcək. Ancaq əvvəlcədən anons edilib ki, baş katib vəzifəsinə Belarus təmsilçisi seçiləcək.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, Paşinyanın Dağlıq Qarabağa son səfəri və hərbçilərlə görüşünün əsas məqsədi gələcək parlament seçkilərində əsas kartın məhz "Dağlıq Qarabağ kartı" olduğunu göstərir:** "Yəni son günlər Ermənistan siyasi arenasında baş verən hadisələr, o cümlədən parlamentin buraxılması, Xaçaturovun KTMT-dən geri çağırılması və yerinə yeni bir ermənistanlı nümayəndənin təyin edilməsi cəhdlərinin baş tutmaması, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin münaqişə ilə bağlı Ermənistana müəyyən təsir etmək cəhdi, ən mühümü isə ABŞ prezidentinin müşaviri Con Boltonun münaqişə ilə bağlı təkidi və bu kimi hadisələr Paşinyanı çıxılmaz vəziyyət qoyur. Yəni keçiriləcək parlament seçkilərində qələbə çalmaq üçün əsas məsələ yenə də Dağlıq Qarabağ münaqişəsi və ondan doğan təzahürlərdir. Burada söhbət həm iqtisadi, həm siyasi, həm də hərbi aspektlərdən gedir. Yəni seçkidə qələbə çalmaq üçün mütləq şəkildə iqtisadi bir palan olmalıdır, bu gün o yoxdur, Rusiya və Qərb arasında manipulyasiyalar da konkret nəticə vermir. Bu iki amil də hərbi vəziyyət mühüm və mənfi təsir edir. Deməli, belə davam etsə, seçkidə birmənalı şəkildə qələbə qazanmaq mümkün deyil. Yenə də ümid əsas kart kimi Dağlıq Qarabağ münaqişəsinə dirənir".

**A.Nağıyev qeyd etdi ki, Dağlıq Qarabağda yaşayan ermənilər və hərbçilər də Paşinyan siyasətindən razı deyillər və bu İrəvan-Xankəndi arasında ciddi qarşıdurma yarada bilər:** "Burada Sərkisyan və Köçəryan faktoru da yaddan çıxarılmamalıdır. Buna görə də Paşinyan əsas bu məsələyə daha çox yer verir və hətta gələcəkdə etməli olacaq güzəştləri də müzakirə edə bilər".

**Politoloq bildirdi ki, bu ərəfədə Azərbaycan prezidenti cənab İlham Əliyevin Ağdama səfəri və münaqişə ilə bağlı verdiyi bəyanatlar da diqqət çəkir:** "İki mühüm məqamlardan biri məhz Ağdamın iqtisadi inkişafı, digəri isə təmas xəttində hərtərəfli aparılan iqtisadi və hərbi islahatlar da erməniləri narahat etməyə bilməz. Dövlət başçısı bir daha Azərbaycanın ərazi bütövlüyünü, işğalçıların şərtsiz olaraq ərazilərimizi tərk etməsini, münaqişənin beynəlxalq norma və prinsiplərə uyğun həllini ön plana çəkdi və bununla da ermənilərə bir daha çatdırdı ki, ərazilərimizdə ikinci bir erməni dövlətinin yaradılması bir xülyadır və bu mümkünsüzdür. Beynəlxalq səviyyədə Azərbaycan dəstəkləndikcə ermənilər özləri üçün təşviş keçirir və mühüm nəticələr çıxarmalıdırlar. Təbii ki, münaqişənin hərbi yolla həlli də variant kimi Azərbaycanın müstəsna hüququdur".


Arzu Nağıyev


Elxan Şahinoğlu

Bu arada işğalçı ölkənin Sarhad Petrosyan adlı daha bir yüksək vəzifəli məmuru Azərbaycanın sərhədini pozub. Moderator.az bu məmur Ermənistan Kadastr komitəsinin sədri vəzifəsini daşıyır. Xankəndində qondarma rejimin oyuncaq başçısı Bako Saakyanla görüşən S.Petrosyan "iki erməni dövləti" arasında daşınmaz əmlakın, yəni torpaqların, evlərin, yaşayış, inzibati, ictimai binaların qeydiyyata alınması sahəsində əməkdaşlıqdan bəhs edib. Görüşdə separatçı rejimin "iqtisadiyyat və istehsal strukturları naziri" hesab olunan Levon Qriqoryan adlı məxluq da iştirak edib. Erməni jurnalsitlərə açıqlamasında S.Petrosyan bildirib ki, separatçı liderlə söhbət zamanı biz birgə fəaliyyət yolları müzakirə edilib. "Bizim iki idarənin işlərini əlaqələndirməyimiz lazımdır. Görüş zamanı birgə tədbirlərin həyata keçirilməsi yollarını müzakirə etdik və bunun üçün heç bir maneə yoxdur. Düşünürəm ki, yaxın gələcəkdə Ermənistan və "Artsax"ın kadastr sektorunda dəyişikliklər ediləcəkdir". Əslində bu, işğalçı tərəfin növbəti həyasızlığıdır.

**Azərbaycan dövlətinin başçısı iki gün əvvəl Ağdam bölgəsində səfərdə olarkən Ermənistan rəhbərliyinə açıq mətnlə xəbərdarlıq edib. Prezident İlham Əliyev belə deyib:** "Ermənistanın yeni rəhbərliyi əvvəlki kriminal rejimin səhvlərini təkrarlamamalıdır, işğal edilmiş torpaqlardan öz işğalçı qüvvələrini tezliklə danışıqlar yolu ilə çıxarmalıdır və imkan verməlidir ki, Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpağına qayıtsınlar. Bunu nə qədər tez anlasalar, o qədər də onlar üçün yaxşı olar, bölgə üçün yaxşı olar. Bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə barışmaq fikrində deyilik, beynəlxalq hüququn normaları bizim mövqeyimizi tam dəstəkləyir, tarixi ədalət bizim tərəfimizdədir".

Bu, həm də Ermənistanın havadarlarına ünvanlanmış mesajdır.

****

N.Paşinyanın Dağlıq Qarabağa səfərini İran ətrafında baş verənlərlə əlaqələndirənlər də oldu. Qeyd edək ki, Ermənistan rəhbərliyi ABŞ-ın İrana qarşı sanksiyalarının qarşılığında Vaşinqtonla əlaqələrin korlanmaması üçün manevrlər etməyə çalışır. Ermənilər 45 km-lik İran-Ermənistan sərhədinin bağlanmasına gedilsə belə, 100 km-lik "Dağlıq Qarabağ-İran sərhədi"nin (?!) qapanmaması üçün əlindən gələni etməyə çalışır. İranı daim özü üçün "nəfəslik" hesab edən işğalçı ölkənin bu gün qonşu müsəlman ölkə ilə əlaqələrini kəsməsi Ermənistan üçün fəlakətli sonluq demək olar. Odur ki, Paşinyan hökuməti Qarabağ və İran arasında əlaqənin kəsilməməsi üçün cəhdlər göstərir.

Məlumata görə, C.Boltonun İrəvandakı danışıqlarında da İran mövzusu geniş müzakirə olunub. Hətta ABŞ-ın Dağlıq Qarabağ ətrafındakı rayonları işğaldan azad etmək və oraya öz sülhməramlılarını yerləşdirməklə İrana yaxınlaşmaq planı olduğu barədə iddialar var. Qeyd edək ki, bu günlərdə politoloq Sülhəddin Əkbər qəzetimizə demişdi ki, ABŞ İranla həmsərhəd rayonların işğaldan azad edilməsinə çalışır.

Ermənistan parlamentinin deputatı Armen Aşotyan deyib ki, Ermənistan hökuməti, müharibə vəziyyətində Ermənistan-İran sərhədlərinin bağlamaq ssenariləri üzərinə müzakirələr aparır. Qeyd edək ki, Paşinyan geosiyasi risklərdən danışarkən, İran-ABŞ qarşıdurması vəziyyətində Ermənistan-İran sərhədlərinin istənilən anda bağlana biləcəyini deyib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a dedi ki, ABŞ-ın İrana qarşı sanksiyaları Ermənistanı çətin vəziyyətə salıb:** "Ermənistan bir tərəfdən, İranla əməkdaşlığını genişləndirmək istəyir, digər tərəfdən ABŞ-ın sanksiyalarını da qulaqardına vura bilməz. Ermənistanın baş katibi Nikol Paşinyan Rusiyaya şikayət etmişdi ki, Amerika İrəvanı İrana görə sıxa bilər, ona görə Moskvadan dəstək gözləyir. Məsələn, İrəvan istəyir ki, Avrasiya İqtisadi Birliyi İranla layihələri hərəkətə gətirsin. Bu, İrəvana ona görə lazımdır ki, Amerikanın təzyiqi ilə üz-üzə qalmasın. İrəvan hətta onu da vurğulayır ki, Ermənistan Avrasiya İqtisadi Birliyinin İranla sərhədi olan yeganə ölkədir. İrəvanın bir başqa təklifi ondan ibarətdir ki, Ermənistan-İran sərhədində azad iqtisadi zona yaradılsın. Ancaq İrəvanın bu çağırışını Avrasiya İqtisadi Birliyi ölkələri qulaqardına vurdular. Çünki bu dövlətlər ABŞ-ın İrana qarşı sanksiyalarının əleyhinə çıxsalar da, indiki şərtlər daxilində İranla əməkdaşlığa maraq göstərmirlər". **E.Şahinoğlunun sözlərinə görə, İranın özü də bu gün elə durumda deyil ki, Ermənistanla iqtisadi və ticarət əlaqələrini genişləndirsin:** "ABŞ Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlıdır. Bunu ABŞ prezidenti Donald Trampın il ərzində Azərbaycan prezidentinə yazdığı məktublar və Ağ Ev sahibinin milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun bölgəyə səfəri zamanı verdiyi açıqlamalar da sübut edir. Buna baxmayaraq, Amerika münaqişənin həlli üçün xüsusi səy də göstərməyəcək. Təəssüf ki, Dağlıq Qarabağ münaqişəsinin həlli hələ ki, Vaşinqton üçün prioritet məsələlərdən deyil. İrana qarşı sanksiyalar işə düşdükdən sonra bu ölkənin bölgədəki rolu fərqli çalarlar ala bilər. İran Amerikanın bölgədəki tərəfdaşlarını özünə düşmən kimi qiymətləndirəcək. İstisna etmirəm ki, Tehranın Azərbaycana tənqidi yenə artsın. Halbuki İranın bunun üçün əsası yoxdur. Azərbaycan Amerikanın İrana qarşı birtərəfli sanksiyalarını qəbul etmir. Ancaq rəsmi Bakı eyni zamanda Vaşinqtonla tərəfdaşlığını da davam etdirəcək".

Şübhəsiz ki, N.Paşinyan İran ətrafındakı vəziyyətdən Ermənistanın bəhrələnməsi və KTMT-də mövqeyinin güclənməsi üçün istifadə etməyə çalışacaq. Gözləyək...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

**Azərbaycan cəmiyyətini bəzən laqeydlikdə, baş verən hadisələrə reaksiya verməməkdə, siyasi proseslərə qoşulmamaqda qınayırlar. Xüsusilə də bu cür qınaqları müxalifət nümayəndələrinin dilindən tez-tez eşidirik. Lakin görünən budur ki, cəmiyyətimizdə milli-mənəvi dəyərlərlə bağlı məsələlər ciddi reaksiyalara səbəb olur.**

# Milli-mənəvi məsələlərdə cəmiyyətdən sərt reaksiya - tək səbəb

yetkinliyinin əlamətidir. Əgər cəmiyyətimiz, dövlətimizə hər hansı bir dəxli olan məsələ gündəmə gələndə cəmiyyət aktivləşirsə, bunu dövlətimizin gücünə güc qatan faktor kimi dəyərləndirmək lazımdır.

Son olaraq deputat Tahir Kərimlinin himnimizlə bağlı səsləndirdiyi fikirlər ölkə toplumunda ciddi rezonansa səbəb oldu. Eləcə də analoji reaksiyanı ötən il repressiya qurbanı olan Mikayıl Müşfiqin heykəlinin götürülməsi, aprel savaşları zamanı müşahidə etmişdik. Ekspertlərə görə, cəmiyyətin öz milli dəyərlərinə sahib çıxması, dövlətin var olması üçün olduqca vacib nüansdır.

**"Yeni Müsavat"a danışan deputat Fəzail Ağamalı söylədi ki, Azərbaycan xalqı heç şübhəsiz ki, hər zaman öz adət-ənənələrinə, dəyərlərinə sayğı göstərir:** "Dəyərlərə müsbət münasibət, həm də ənənəvi xarakter daşıyır. Cümhuriyyətimiz işğala məruz qaldıqdan sonra, Azərbaycanda sovet rejimi qurulanda da dəyərlərimizə, dinimizə sayğı, diqqət yetirərək müstəqilliyimizə qədər gətirib çıxardıq. Məhz bu bağlılığın göstəricisidir ki, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində xalqımız meydanlara çıxıb, özünün müstəqillik uğrunda mücadiləsinə başladı. Həmin zaman Azərbaycan xalqı ilin xalqı elan olundu, 20 Yanvar facielərindən keçib, qurbanlar verdi. Azərbaycan dünyanın humanitar bir mərkəzinə, sivilizasiyaların barış məkanına çevrilməkdədir. Baxın, Avropada hansı proseslər gedir.





**Fəzail Ağamalı: "Bu məsələlər cəmiyyətin genetik kodundan qaynaqlanır"**

**Aydın Quliyev: "Cəmiyyətin ruhu, fəaliyyəti və baxışları dövlətçilik mənafeləri ilə tam birləşib"**

Orada millətçilik tüğyan edir, dözümsüzlük var, cəmiyyət daha radikaldır. Bütün bunlar onu göstərir ki, Avropada cəmiyyət deqradasiyaya uğrayır, aşılanır və təbii ki, bu cür hallar da istənilən cəmiyyətə böyük problemlər gətirir. Nəticədə cəmiyyətin perspektivsizliyini ortaya qoyur. Azərbaycan isə bütün bunlardan uzaqdır və söylədiyimiz keyfiyyətlərin hamısını özündə ehtiva edir. Hətta bu yaxınlarda Papa Azərbaycandakı dini yəhudi icmasının nümayəndələrini Romada qəbul edərkən Azərbaycanı tolerant, sivilizasiyaların birinin digərini tamamladığı ölkə kimi misal çəkdi, buna müsbət qiymət verdi. Bəli, biz, buyuq. Çalışmalıyıq ki, bu dəyərlərimizi saxlayaq. Bütün bu məsələlər, təbii ki, Azərbaycan cəmiyyətinin genetik kodundan qaynaqlanır. Azərbaycan xalqının genetikası, onun düşüncəsi, həyat tərzi uzun illər boyu buna köklənib. Biz də onun konkret nəticələrini görməkdəyik. Hər bir dünya ölkəsi bu gün Azərbaycandan bu və ya digər məsələlərlə bağlı nümunə götürə bilər. Əlbəttə ki, biz xalqımızın üstün keyfiyyətlərini etiraf etməklə bərabər, bütün bunları reallaşdıran, onu dünyaya təqdim edən ulu öndərimizin siyasi irsini, onun fundamental xəttini və bu xəttə sədaqətlə xidmət edən ölkə prezidentinin fədakarlığını, töhfələrini xüsusi qeyd etməliyik".

**"Bakı-xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev mövzu ilə bağlı "Yeni Müsavat"a bildirdi ki, bütün bunlar birmənalı şəkildə həm cəmiyyət, həm də dövlət üçün əhəmiyyətli təzahürdür:** "O yerdə narahat olmaq lazımdır ki, dövlətçiliklə cəmiyyətin arasında ümumi hədəflər olmasın. Yaxud hansısa hədəfə yönəlmək məsələsində dövlətlə cəmiyyət arasında anlaşılı şərait yaranmasın. Yalnız bundan qorxmaq lazımdır. Azərbaycanda isə belə deyil. Bizim cəmiyyətimiz dövlətçilik mənafeləri və hədəfləri istiqamətində çox aktivdir. Həm mənəvi sahədə, mədəniyyət sahəsində, həm də siyasi, iqtisadi sahədə dövlətçiliyimizlə bağlı hər hansı məsələ ortaya gələndə, cəmiyyətin hamılıqla aktivləşməsini və fəal reaksiyasını görürük. Bunu dövlətçiliyi gücləndirən faktor hesab edirəm. Bu, bizim cəmiyyətin siyasi, mənəvi və ruhi olaraq

Ona görə mən də cəmiyyətimizin bu cür aktiv mövqeyini alqışlayıram. Hesab edirəm ki, bu cür aktivlik həm cəmiyyətə faydalıdır, həm də dövlətçilik mövqeyimizi gücləndirən bir təzahürdür. Konkret misallara baxsaq, buna çoxlu sayda nümunələr göstərmək olar. O cümlədən ən böyük nümunə 2016-cı ilin aprel döyüşləri idi. O zamana qədər hətta Azərbaycanın özündə belə hesab edənlər vardı ki, cəmiyyətin, xalqın döyüş ruhu ölüb. Belə bir fikir işlədənlər də vardı ki, ermənilər Qarabağ ətrafındakı yeni işğallara başlasalar belə, Azərbaycan cəmiyyəti buna reaksiya verməyəcək. Ancaq təkcə bir qalibiyyətli döyüş, bu döyüşün yaratdığı rezonans, döyüşün nəticələrinə cəmiyyətimizin reaksiyası və dəstəyi bir daha göstərdi ki, Azərbaycan cəmiyyəti ruhən hər zaman ayaq üstündədir. Azərbaycan cəmiyyətinin ruhu, fəaliyyəti və baxışları dövlətçilik mənafeləri ilə tam şəkildə birləşib".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Deputatlardan hökumətə onlayn media və uşaqpulu müraciəti

## Vahid əmək haqqı ilə bağlı tarif müəyyən olunması təklifi də səsləndi

**Noyabrın 7-də Milli Məclisin komitələrində büdcə müzakirələri davam etdirilib. Maliyyə naziri Samir Şərifov deyib ki, növbəti ildə Azərbaycanın xaricdə olan diplomatik nümayəndələrinin maaşlarının artırılması nəzərdə tutulub.**

Nazir deyib ki, uşaqların doğulması ilə bağlı müavinətlərin artırılması ilə bağlı məsələni də təhlil etmək lazımdır: "Mənim fikrim odur ki, Azərbaycanı Belarus, eləcə də digər xarici ölkələrlə müqayisə etməməliyik. Çünki oradakı demoqrafik vəziyyətlə bizdəki vəziyyət tamamilə fərqlidir".

**S.Şərifov bildirib ki, hər dövlətin öz xüsusiyyətləri var:** "Lakin bu xüsusiyyətləri nəzərə alaraq, uşaqlara müavinətlə bağlı münasibət formalaşdırmalıyıq. Prinsip etibarı ilə buna baxa bilərik".

**Deputat Fəzail Ağamalı isə Milli Məclisə ayrılan ezamiyyə xərclərinin az olmasından şikayətlənib və ezamiyyə xərclərinin artırılmasını təklif edib. O bildirib ki, Milli Məclisə ayrılan ezamiyyə xərcləri çox azdır:** "Bunun az olması ucbatından Milli Məclis beynəlxalq, regional, parlamentlərarası fəaliyyətdə xeyli məhdudlaşdırmalara məcbur olur. Dəfələrlə biz bunun şahidi olmuşuq ki, maliyyə xərclərinin az olmasına görə bizim beynəlxalq təşkilatlarda ayrı-ayrı dövlətlərlə aparmış olduğumuz parlament münasibətlərində kifayət qədər problemlərimiz ortaya çıxır. Ona görə də çox xahiş edərdim ki, Milli Məclisə ayrılan ezamiyyə xərcləri artırılsın".

**"Milli Məclisin ezamiyyə xərcləri ilə bağlı məsələyə baxılır". Modern.az-ın məlumatına görə, bunu maliyyə naziri Samir Şərifov deyib.**

**Komitə iclasında onlayn medianın problemindən də bəhs olunub. Həmişə olduğu kimi, bu dəfə də mövzuya deputat, Mətbuat Şurasının sədri Əflatun Amaşov diqqət çəkib.** "Dəfələrlə Milli Məclisin iclaslarında onlayn media ilə bağlı fikirlərimi səsləndirmişəm. Hazırda vəziyyət o yerdədir ki, reklam yoxdur. Bundan da istifadə edən ayrı-ayrı qruplar bəzi saytları maliyyələşdirərək şı




adamlarını, tanınmış şəxsləri, məmurları yersiz şəkildə təhqir edirlər, böhtan atırlar" - Ə.Amaşov bildirib. O qeyd edib ki, onlayn mediaya dövlət büdcəsindən maliyyə ayrılmalıdır: "Bu, reklam bazarı formalaşdırılana qədər olmalıdır. Təklif edirəm ki, onlayn mediaya 1 milyon manat ayrılsın. Bu da büdcə üçün elə də böyük rəqəm deyil".

**Deputat Qüdrət Həsənquliyev hökuməti şəhid ailələrinə həssas yanaşmağa çağırıb və çağırış edib:** "Vallah, şəhid ailələri demək olar ki, hər gün dövlət qurumları qarşısında toplaşırlar. Bu, düzgün deyil". Deputat qeyd edib ki, bununla bağlı məlumatlara bizim düşmənlərimiz də baxır: "Lap tikinti sektoruna ayrılan vəsaitdən bu sahəyə ayrıla bilər. Onların ya övladları, ya da həyat yoldaşları şəhid olublar".

**O, həmçinin əlavə edib ki, gələn ilin büdcəsindən 7 milyard manat pul tikinti işlərinə ayrılıb:** "Bu 7 milyard hansı sahələrə ayrılacaq? Ümumi şəkildə dəmiryol, neft şirkətinə ayrılması qeyd olunub. 60 yeni layihə maliyyələşdiriləcək. 114 obyekt isə istifadəyə veriləcək. Büdcənin təxminən üçdə birinin tikintiyə ayrılması nə dərəcədə düzgündür? Ondansa yeni zavod tikilsə yaxşı olar. Hər hansı texnogen qəza şəhərin böyük hissəsini fəlakətlə üz-üzə qoyacaq".

**"Milli Məclisin deputatlarının maaşı artırılsın". Modern.az-ın məlumatına görə, bunu da deputat Qüdrət Həsənquliyev söyləyib. Deputat qeyd edib ki, cənab prezident 1 may 2017-ci il tarixdə fərman imzalayıb ki, yol hərəkəti qaydalarına görə, Vergilər Nazirliyi tərəfindən təyin olunan cərimələrin 25 faizinin 5 faizi, dövlət rüsumu haqqında qanuna uyğun olaraq toplanan rüsumların 25 faizinin 5 faizi Prezident Administrasiyasının əməkdaşlarının əmək haqlarına əlavə edilir:** "Düşünürəm ki, bu yaxınlarda Nazirlər Kabineti ilə bağlı da belə qərar qəbul olunacaq. Cərimələrin 2 faizi onların əmək haqlarına yönəldiləcək. Milli Məclisə də heç olmasa buradan 3 faiz ayrılsın. Ya da cərimələr üzrə əlavələrin verilməsi qaydası tamamilə ləğv olunsun. Vahid əmək haqqı ilə bağlı tarif müəyyən olunsun. Prezident hər dəfə əmək haqqının artırılması ilə bağlı sərəncam imzaladıqda bu, hamıya şamil olunsun".

**Deputat Fazil Mustafa isə diqqəti digər vacib problemə çəkib:** "Bu gün Azərbaycanda onkoloji və QİÇS xəstəlikləri 3 dəfə artıb. Bunun səbəbi isə normal tibb təhsilinin olmaması və keyfiyyətsiz qida məhsulları ilə bağlıdır".

**Deputat qeyd edib ki, Azərbaycanda lazımi şərait olmadığından tələbənin normal tibb təhsili alması və kadr kimi yetişməsi mümkün deyil:** "Bunu etiraf etməliyik. Normal təhsil ala bilmədiyindən normal kadr da yetişmir. Ona görə də xaricdə təhsili zəruri edirlər. Buna diqqət yetirmək lazımdır və büdcədən bunun üçün lazımi səviyyədə vəsait ayrılmalıdır".

**Deputat həmçinin uşaqların normal qidalanmadan əziyyət çəkdiklərini və bunun nəticəsində normal fizionomiyaya malik olmadıqları probleminə diqqətin ayrılmasını zəruri hesab edib.**

"Biz beynəlxalq olimpiadalarda iştirak edirik, oradakı 400-500 şagird içərisindən çox az qismi normal fizionomiyaya malikdir. Yerdə qalanların fizionomiyasının çox pis olduğunu görürük. Bunun səbəbinin biri orta məktəblərdə idman dərsinin tədrisindəki problemlərlə bağlıdırsa, digər bir hissəsi qidalanma ilə əlaqəlidir. Azərbaycan insanı keyfiyyətsiz qida ilə qidalandığından onların fizionomiyası zəif olur, onkoloji və digər xəstəliklər geniş yayılır. Bu gün ölkədə qida keyfiyyəsizliyi ilə bağlı məsələlər sirr deyil. Bu sahədəki problem aradan qaldırılmalıdır". F.Mustafa eyni zamanda uşaqpullarının və doğuşa görə birdəfəlik müavinətin artırılmasını təklif edib: "Bu gün Azərbaycanda 1 milyonadək uşaq var və heç olmasa, 6 yaşadək uşaqlara uşaqpulu verilməsi təmin edilməlidir".

**❑ E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

**Noyabrın 6-da ABŞ-da keçirilən aralıq seçkilər başa çatıb. ABŞ prezidenti Donald Trampın da təmsil olunduğu hakim Respublikaçılar Partiyası Senat seçkilərində qalib gəlib. Müxalif Demokratlar Partiyasının namizədləri isə Konqresin Nümayəndələr Palatasına seçkilərdə daha çox səs toplayıblar.**

# ABŞ-da aralıq seçkilərdə müxalifət üstünlük qazandı

## Tramp üçün böyük problemlər başlayır



Belə ki, respublikaçılar Konqresin Yuxarı Palatasında (Senat) 50 yer, demokratlar isə 41 yer qazanıb. Konqresin Aşağı Palatasına (Nümayəndələr Palatası) keçirilən seçkilərdə isə Respublikaçılar Partiyası 197 yerə, Demokratlar Partiyası isə 238 mandata sahib olub.

Qeyd edək ki, aralıq mərhələdə Nümayəndələr Palatasının 435 üzvünün hamısı, Senatın isə üçdə biri müəyyən ediləcək.

Ekspertlər hesab edir ki, əslində ABŞ seçkilərində sürpriz baş vermədi, əvvəldən verilən proqnoz özünü doğrultdu. Gözlənildiyi kimi, Nümayəndələr Palatasına seçkilərdə demokratlar qalib gəldi. Respublikaçılar Senatda üstünlüyünü saxladı. Amerika seçicisi yenə də prezident seçkilərindən 2 il sonra parlamenti müxalifətə verərək balansı təmin etdi. Təhlilçilər bunun demokratiyanın daha bir nümunəsi olduğunu bildirirlər.

Bəs seçkinin nəticələrinin təsirləri necə olacaq?

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bildirdi ki, seçkinin nəticələri Donald Trampın həm daxili, həm də xarici siyasətinə təsir edəcək. Qanunvericilik sahəsində Trampın ciddi problemləri yaranacaq. Administrasiyanın irəli sürdüyü qanunları demokrat konqresmenlər bloklamağa çalışacaqlar. O cümlədən aşağı palatada Trampın əl-qolunu bağlayacaq qanunlar qəbul ediləcək. Bu həm daxili, həm də xarici siyasətlə əlaqəli olacaq:** "Digər tərəfdən, xüsusi prokuror Mülllerin apardığı təhqiqat genişləndirilə bilər. İmpiçment məsələsi qoyula bilər. Yeni həm daxili, həm də xarici siyasətdə Tramp üçün ciddi problemlər yaranacaq. Prezidentin komandasında yeni istefalar və ya prezidentin kimlərisə işdən uzaqlaşdırması halları ola bilər. Təbii ki, daxili siyasət kimi xarici siyasətin də aktual problemləri var".

**Demokratların qalib gəlməsinin Trampın impiçmentinə gətirib çıxarıb-çıxarmayacağına gəlincə, S.Əkbər qeyd etdi ki, impiçment hələ prezidentin vəzifədən kənarlaşdırılması demək deyil. İmpiçment ola bilər, amma vəzifədən uzaqlaşdırma çətindir. Çünki bunun üçün Konqresin hər iki palatasının üçdə ikisinin səsi lazımdır. Senatda isə respublikaçıların çoxluğu nəzərə alınsa, bu mümkünsüz görünür:** "İmpiçment məsələsi aşağı palatada qəbul oluna bilər, amma vəzifədən kənarlaşdırma real görünmür. Üstəlik, Ali Məhkəmə proseduru da var. ABŞ Konstitusiyası və qanunları əsasında prezidenti vəzifədən uzaqlaşdırmaq çox mürəkkəbdir. Adətən təcrübədə belə olub ki, impiçment olub, amma sonradan prezidentin özü istefa verib. Trampın xarakterini nəzərə alsaq, impiçment olsa belə, onun könüllü istefası mümkün görünmür. Bu istefa yalnız o zaman baş verə bilər ki, xüsusi prokuror Mülllerin apardığı araşdırma çərçivəsində Trampa qarşı, xüsusilə onun Rusiya ilə əlaqələrinə dair ciddi faktlar ortaya qoyulsun, prezidentin yalan ifadə verməsinə dair ciddi sübutlar ortaya çıxarılsın".

**Politoloq Natiq Miri də hesab edir ki, Demokratların son səkkiz ildə ilk dəfə Konqresin aşağı palatasında hakimiyyəti ələ alması onlara prezidentin gündəliyinə təsir etmək imkanı verəcək.**

**Demokratlar prezident administrasiyasının yürütdüyü xarici və daxili siyasətə təsir imkanları qazanıblar:** "Seçkinin nəticələrinə görə, aşağı palatada bir sıra komitə və komissiyaların sədrləri demokratlardan olacaq. Bu isə o deməkdir ki, Demokratlar prezident Donald Trampa qarşı araşdırmaları dərinləşdirəcək. Həmçinin Trampın bir sıra istiqamətlər üzrə qanunvericilik təşəbbüslərinin keçməsinin qarşısı alına bilər. Bu isə ABŞ-ın həm daxili, həm də xarici siyasətində öz təsirini göstərəcək. ABŞ Konstitusiyasına görə, Konqresin daxili siyasətdəki rolu xarici siyasətdəki ilə müqayisədə daha böyükdür.

Məhkəmə araşdırmaları və ictimai mühakimə sahəsində də çox şeylər dəyişəcək. Artıq amerikalı siyasi təhlilçilər bəyan edirlər ki, Nümayəndələr Palatasındakı komitələrdə kompleks araşdırmalar başladılacaq. Bura immiqrasiya siyasəti ilə bağlı inzibati qadağalar da daxildir. Bu araşdırmaların predmeti ilk növbədə qeyri-leqal miqrantlara qarşı münasibətdə qəbul edilən sərt tədbirlər ola bilər.

Demokratların üstünlüyü ələ alması Trampın Rusiya ilə mümkün əlaqələrinə dair yeni yoxlamanın başladılması ehtimalını da yarada bilər.

Demokratların çoxluğu qazanması həm də respublikaçıların Barak Obamanın dövründə qəbul edilən məşhur səhiyyə islahatlarının tamamən ləğvinə dair arzusunun da üstündən xətt çəkəcək.

Tramp administrasiyası üçün çox vacib olan məsələlərin həlli demokratların təsdiqi olmadan mümkün olmayacaq".

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Dünyanın unutduğu Yəmən

## Yəməndə atəşkəs çağırışları ərəb koalisiyasının hücumlarının artması ilə müşahidə olunur; Səudiyyə Ərəbistanının Yəməndəki inadının arxasında dayanan amillər...



**Yəməndə müharibə, aclıq və epidemiya nəticəsində insanların kütləvi ölümlərinin sayı artıb. UNİCEF-in məlumatına görə, hazırda hər 10 dəqiqədə bir yəmənli uşaq aclıq və xəstəlikdən dünyasını dəyişir. Bu barədə təşkilatın Yaxın Şərq və Şimali Afrika üzrə regional direktoru Girt Kepler İordaniya paytaxtında keçirdiyi mətbuat konfransında məlumat verib.**

Yəmənin "uşaqların cəhənnəminə" çevrildiyini deyən UNİCEF rəsmisi vəziyyətin ölkənin 60 faizində deyil, bütün ərazisindəki uşaqlar üçün eyni dərəcədə fəlakətli olduğunu qeyd edib. Onun sözlərinə görə, hazırda Yəməndə 1,8 milyon uşaq aclıq çəkir və normal qida ala bilmir. Bundan başqa, 400 uşaq isə aclığın yaratdığı xəstəliyi yaşayır. Bu uşaqların 40 faizi Hudeydə şəhərindədir. Vəziyyət isə günü-gündən daha da pisləşir. Kepler deyib ki, hər il 5 yaşdan aşağı təxminən 30 min uşaq xəstəlikdən dünyasını dəyişir. O, qida çatışmazlığının aradan qaldırılacağı təqdirdə bu ölümlərin qarşısının alına biləcəyini bildirib.

Yəməndə isə müharibə amansızcasına davam edir. Məlum olduğu kimi, 2015-ci il martın 26-da Səudiyyə Ərəbistanının liderliyi ilə 10-a yaxın ərəb və müttəfiq ölkələr Yəmənə hərbi müdaxilə edib. Əsas şüar isə Yəməndə 2014-cü ilin sentyabrında hakimiyyəti ələ keçirmiş husilərin Ənsarullah Hərəkatını hakimiyyətdən uzaqlaşdırıb devrilmiş prezident Mansur Hadini postuna geri qaytarmaqdır. Məlum olduğu kimi, 2012-ci ildə prezident Əli Abdullah Salehin iqtidarı bir ilə yaxın davam edən xalq etirazı nəticəsində devrilib və ölkəyə müvəqqəti olaraq vitse-prezident Mansur Hadi rəhbərlik etməyə başlayıb. Ancaq M.Hadi seçkilər keçirməyib və sonrakı illərdə siyasi qüvvələr və etnik qruplarla dil tapa bilməyib. Nəticədə 2014-cü ildə şimalda üsyan qaldıran husilər digər etnik qruplarla birləşərək mərkəzi hökuməti və paytaxt Sənanı ələ keçirib. Ancaq 2015-ci ilin yanvarında Kral Abdullanın ölümündən sonra vəzifəyə gələn Kral Salman Yəməndə şiə-zeydilərin hakimiyyətdə möhkəmlənməsinə imkan verməmək üçün bu ölkəyə təzyiqləri artırıb. Martda isə hərbi müdaxilə başladıb. Ancaq husilər Səudiyyə Ərəbistanı koalisiyasına qarşı ciddi müqavimət göstərib, bu səbəbdən də əməliyyat uzanıb və hələ də davam edir. Ərəb koalisiyası Yəmənin husilərin nəzarətində olan hissəsini havadan və dənizdən mühasirəyə alıb, ölkəyə qida, dərman keçirilməsinə imkan verilmir. Səna şəhərinin beynəlxalq hava limanı Səudiyyə aviasiyası tərəfindən bombalanaraq uçuşa yararsız vəziyyətə gətirilib.

Hazırda Yəmənin husilər nəzarət edən bölgəsində dənizə yeganə çıxışı olan Hudeydə şəhəri uğrunda artıq 5 aydır qanlı döyüşlər gedir. Ərəb koalisiyası şəhəri ələ keçirmək və bununla da husilərin dənizdən yardım ala biləcəyi sonuncu limanı da nəzarətə götürmək istəyir. Ancaq husilər limanı hələ ki qoruyurlar. Yaz və yayda davam edən bir neçə hücum nəticəsiz olduğu üçün ötən həftə ərəb koalisiyası 10 yeni qüvvə ilə Hudeydəyə yeni hücum başladıb. İki gün əvvəl şəhərin ələ keçirildiyi xəbərləri yayılsa da, husilər növbəti dəfə təkzib ediblər.

Ötən gün Yəmən ordusunun sözçüsü Yəhya Səri bildirib ki, Hudeydə şəhərinə hücum zamanı 200-dən çox Səudiyyə Ərəbistanı hərbçisi öldürülüb. Hudeydə şəhəri koalisiyanın nəzarətinə keçərsə, bu, husilərin məğlubiyyəti anlamına gəlir. Çünki husilərə gələn yardım və qidanın 70 faizi Hudeydə limanından keçirilir.

Maraqlıdır ki, Səudiyyə Ərəbistanı koalisiyası Hudeydə şəhərinə hücumu məhz ABŞ hökumətinin atəşkəs çağırışından sonra başladıb. Ehtimal olunur ki, dünya ictimai rəyində Səudiyyə Ərəbistanının nüfuzunun düşməsi, Qaşıqçı hadisələrinə sərt etirazların fonunda Ər-Riyada qarşı qəzəb də artıb. Belə bir vəziyyətdə ehtimal ki, ab-havanı yumşaltmaq üçün Vaşinqton krallığa atəşkəs üçün təzyiq etməyə başlayıb. Bu isə o deməkdir ki, Ərəbistan hakimiyyəti husilərlə atəşkəsdən sonra danışıqlar masasına oturacaq. Onlar isə Yəməndə savaşdan nəticəsiz çıxmaq istəmirlər. Bu səbəbdən də Hudeydə şəhərini, yeni husilərin sonuncu "nəfəsliyini" bağlamaq və atəşkəsə qədər onları məğlubiyyətə uğratmaq istəyirlər.

Yəmən Ali İnqilab Komitəsi sədri Məhəmməd Əli əl-Husi bildirib ki, Səudiyyə Ərəbistanının hücumları məhz ABŞ dövlət katibi Maykl Pompeonun atəşkəs çağırışından sonra artıb. Eyni zamanda o deyib ki, ərəb koalisiyasının qərb sahillərindəki hücumları sülh müzakirələrini zədələmək məqsədi güdür. Ancaq əl-Husi istənilən halda müqavimət göstərməkdə davam edəcəklərini bildirib.

Dünya ictimaiyyətində Səudiyyə Ərəbistanına qarşı təzyiqlərin artması, üstəlik, Yəməndəki humanitar böhranın fəlakətli vəziyyətə gəlməsi bu ölkədəki amansız müharibənin dayanacağı ilə bağlı ümid yaradır. Ancaq ərəb koalisiyası, eləcə də onun Qərb müttəfiqləri Yəməndə İranla yaxın əlaqələri olan husilərin legitimliyini qəbul etməkdə çətinlik çəkir.

**Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

# Qanunsuz sahibkarlıq fəaliyyəti göstərən daş karxanalarının sahibləri həbs edilib



**Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətləri birgə məlumat yayıb. "Report"a daxil olan birgə məlumatda bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması istiqamətində mühüm işlər görülür.**

Lakin bəzi hallarda ayrı-ayrı fiziki və hüquqi şəxslər tərəfindən sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyindən sui-istifadə edilərək ətraf mühitin mühafizəsi qaydalarının pozulması halları müşahidə olunur və belə hallara qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən aparılan monitorinqlərin nəticəsində 22 hüquqi və 26 fiziki şəxsin Abşeron rayonu, Bakı şəhərinin Qaradağ, Səbail və Xəzər rayonları ərazisində yerləşən əhəngdaşı yataqlarında qeyri-qanuni istismar işləri aparmaları ilə əlaqədar toplanmış materiallar əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 192.2.1 (qanunsuz sahibkarlıq), 247 (işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Başlanmış cinayət işi üzrə ETSN-in mütəxəssisləri cəlb edilməklə Baş İdarənin təcrübəli müstəntiq, əməliyyatçı və mütəxəssislərindən ibarət yaradılmış istintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində müəyyən olunub ki, Abşeron rayonunda yerləşən "Güzdək", Bakı şəhərinin Qaradağ rayonundakı "Güzdək, Gülbaxt, Qaradağ-II, Şahqaya və Karvansaray", Xəzər rayonunda yerləşən "Türkan-I və Türkan-II" və Səbail rayonu ərazisindəki "Şahinbax" mişardaşı karxanası və əhəngdaşı yataqlarında fəaliyyət göstərən 48 sahibkarlıq subyekti ətraf mühitin qorunması sahəsində qanunvericiliyin tələblərini yerinə yetirməyib, apardıqları qeyri-qanuni istismar işləri nəticəsində ətraf mühitə ümumilikdə 4 milyon 845 min manat məbləğində ziyan vurublar.

İstintaq zamanı, həmçinin, qeyd edilən 48 sahibkarlıq subyektindən 29-nun "Dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması"na dair müvafiq icra hakimiyyəti orqanı olan Fövqəladə Hallar Nazirliyindən lisenziya almadan fəaliyyət göstərmələri müəyyən olunub.

Aparılmış istintaqla qeyd edilən sahibkarların istismar işləri zamanı ətraf mühitin mühafizəsi qaydalarına riayət olunması üçün cavabdeh müəyyən edilmiş şəxs kimi həmin qaydaların pozmalarının ağır nəticələrə səbəb olmasına, vəzifə səlahiyyətlərindən sui-istifadə etmələrinə və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmalarına, bununla da "Günəş" kooperativinin rəhbəri Yarıyev Xaləddin Böyükağa oğlunun 337 min manat, fiziki şəxslər Babaxanov Afərin Ağabala oğlunun 132 min manat, Almazov Oruc Mirəskər oğlunun 103 min manat, Qazaxov Laçın İsmayıl oğlunun 100 min manat, Əliyev Cəlal Bayandır oğlunun 74 min manat, Kazımov Elşən Hüseyn oğlunun 64 min manat və Qasımov Tapdıq Xanlar oğlunun 44 min manat miqdarında ətraf mühitə ziyan vurmalarına əsaslı şübhələr müəyyən edilib.

Cinayət işi üzrə "Günəş" kooperativinin rəhbəri Xaləddin Yarıyev, fiziki şəxslər Afərin Babaxanov, Oruc Almazov, Laçın Qazaxov Cinayət Məcəlləsinin 192.2.1, 247 və 308.2, Elşən Kazımov və Tapdıq Qasımov Cinayət Məcəlləsinin 192.1, 247 və 308.2, Cəlal Əliyev isə həmin məcəllənin 192.1 və 247-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyən edilərək məsuliyyətə cəlb olunmaları, ətraf mühitə vurulmuş ziyanın ödətdirilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər davam etdirilir.

Eyni zamanda bu kimi cinayətlərin törədilməsinə səbəb və şərait yaradan halların müəyyən edilərək aradan qaldırılması və bu sahədə baş verən neqativ halların qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi təmin ediləcək.

❑ **Musavat.com**




## "Bakcell"in dəstəyi ilə yaradılmış startap təlim və kurs axtarışını asanlaşdırır




**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti yerli startaplara dəstək göstərməyə və özünün AppLab inkubasiya proqramı vasitəsilə innovasiyaları insanların gündəlik həyatına gətirməyə davam edir.**

**AppLab tərəfindən dəstəklənən layihələrin bir çoxu uğur qazana bilib, maraqlı və unikal məhsulların yaradılmasına nail olub. Belə startaplardan biri olan "Bilik.al" insanlara müxtəlif sahələr üzrə təlim və kurslar tapmağa kömək edən internet səhifəsidir. Bu səhifə sayəsində istifadəçilər "PHP proqramlaşdırma dilini harada öyrənmək olar?", "ən yaxşı yoqa müəllimi kimdir?" və yaxud "futbol məktəbini harada tapmaq olar?" kimi suallara asan şəkildə cavab tapa bilirlər. Sözügedən platforma İT sahəsindən tutmuş kulinariyaya qədər bir çox sahəni əhatə edən seçilmiş kateqoriyalar üzrə sürətli axtarış imkanını verir. İnternet səhifəsinin mobil versiyası da mövcuddur ki, bu da istifadəçilərə istənilən kursu mobil telefon və planşetlərində rahatlıqla ə tapmaq imkanı verir. Kurslar və təlimlər haqqında məlumatın sayta yerləşdirilməsi tamamilə pulsuzdur. Gələcəkdə "bilik.al" komandası iOS və Android üzərində işləyən cihazlar üçün mobil tətbiqetmə yaratmağı da planlaşdırır.**

**""Bilik.al" layihəsinin əsas məqsədi şəxsi və peşəkar inkişaf üçün müvafiq kurs və təlim tapıb uğur qazanmaqda insanlara kömək etməkdir. Cəmi 5 ay ərzində kurs və təlimlərin təşkili ilə məşğul olan 40-dan şirkətlə əməkdaşlıq qurulub və hazırda saytımızda aktiv istifadəçi sayı 5 mini ötür. İnanırıq ki, bu layihə istənilən kursu asanlıqla tapmaq üçün ən əlverişli resurs olmaqla gənclərin uğur qazanmaq üçün inkişaf etmək imkanlarını artıracaq. Layihəni rellaşdırmaqda göstərdikləri böyük dəstək və məsləhətlərə görə "Bakcell" şirkətinə və AppLab mərkəzinə minnətdarıdq" deyə bilik.al layihəsinin təsisçilərindən biri Cavid Abbasov bildirib.**

**AppLab proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar. İştirakçılar müvafiq təlimlərlə yanaşı, şirkətin AppLab Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. AppLab Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.**

**İnnovasiya sahəsində lider olan "Bakcell" öz innovativ ideyalarını həyata keçirmək üçün gənclərə lazımı şərait yaratmağa və dəstək göstərməyə həmişə hazırdır.**

YENİ MÜSAVAT
N 238 (7127) 8 noyabr 2018

# Bu gecə bizi üzmə, "Qarabağ"...

## Aydındır ki, "Qarabağ" tənqidlərdən, xalsız qalmaqdan təngə gəlib və "Vorskla" ilə qarşılaşmada heç olmasa, ilk xalını qazanmağa çalışacaq

**Bu gün Avropa Liqasının qrup mərhələsinin 4-cü turunda "Qarabağ" səfərdə Ukraynanın "Vorskla" klubu ilə qarşılaşacaq. Bakı vaxtilə saat 00:00-da başlayacaq görüşü isveçrəli hakimlər briqadası idarə edəcək. Qarşılaşmanın baş hakimi Sandro Şarer olacaq. Ona Stefan De Almeyda və Bekim Zoqay köməklik edəcək.**



"Arsenal"ın 3 oyundan sonra 9 xalla liderlik etdiyi E qrupunda Portuqaliya "Sportinq"i 6 xalla ikinci pillədə qərarlaşıb. Bu axşamkı rəqibimiz "Vorskla" Bakıdan apardığı 3 xaldan sonra 3-cü yerdədir. Turnir cədvəlində sonuncu olan "Qarabağ"ın adı qarşısında isə oyunların sayını göstərən 3 və qapılarından buraxılan qolların hesabını göstərən 6 rəqəmləri var. Qalan nəticələr sıfırdır...

Bu təfsilatı ona görə yazmaqda fayda var ki, "Qarabağ"ın bu mövsüm uğursuzluğunun səbəbi barədə hamımız düşünək, bütün klublarda belə "qara zolaq" ola bilər deyib, köks ötürməklə kifayətlənməyək... İki səbəbi mən deyirəm: heyətdə oturuşmuş oyunçuları burada saxlamağa çalışmalı; ÇL-də oynamış klub daha uğurlu transferlər etməli idi.

"Neftçi"nin oyunlarına baxıram, bu klubun indiki uğurunun əsas səbəbi, məncə, həm də ağıllı transferləridir. Elə çempionatın içindən Dabonu transfer etməklə "Neftçi" çox şey qazanıb. "Qarabağ"ın xaricdən gətirdiyi oyunçular isə təəssüf ki, gedənlərin yerini tuta bilmədilər. Bəlkə də milli çempionatda qapıya yol tapa bilirlər, Avropa meydanlarında isə ürək ağrıdan sıfırlardan başqa bir nəticə yox... Qurban Qurbanov peşəkar kimi bu cür situasiyalara hazır adamdır, biz bugünkü oyunla yaşayırıq, o daha uzağı görür, şübhəsiz ki, klubun "canının ağrıdığının" səbəbini də bizdən qat-qat yaxşı bilir. Ona görə də peşəkar həkim kimi "xəstə"nin sirini vermir, əvəzində optimist danışır: Yaxşı olacaq, yorğunluqdur... və sair. İnanaqmı? İnanaq...

"Qarabağ" bizim canımızdır, ona görə ağrısını tez hiss edirik, bu cür bəlkə də kluba xoş olmayan reaksiya veririk. Türklərin bu yerdə işlətdiyi yaxşı bir ifadə var: bəlkə abartmayaq...

***

E qrupundakı hazırkı mövqeyimiz "Qarabağ"ın bu mövsüm də Avroliqa qrupundan çıxa bilməyəcəyini deyir. "Qarabağ" "Sportinq"lə səfər oyununda, "Arsenal"la isə Bakıdakı qarşılaşmalarda autsayder kimi oynamadı. Bu iki oyunda heç olmasa, bir xal qazanmaq mümkün idi. Poltava təmsilçisi ilə ev oyununda isə hamı qələbə gözlədiyi halda, klub uduzdu. Yəni ən pis hesablamalarda belə, hazırda bizim 4 xalımız olmalı idi. Bu 4 xalı qazana bilsəydik, gələcək perspektivlə bağlı fərqli düşünə bilərdik. Bakıdakı məğlubiyyət isə "Vorskla"nın şanslarını artırdı və bu gün onlarla oynamaq daha çətin olacaq.

Baş məşqçi Qurban Qurbanov Bakını tərk edərkən oyunla bağlı danışarkən bu məqama da toxunub. **"Biz oyunlarda çox xal itirdik. Hələ qarşıda itiriləsi çox şey var. Amma biz buna hazır olmalıyıq. Ola bilər ki, rəqib daha da istəkli olsun. Çünki onlar qələbə qazanacağı təqdirdə 6 xalları olacaq. Ola bilər ki, "Sportinq"lə xalları bərabər olsun. Amma biz yenə də bu matçı düşünürük. Rəqibin heç bir fikri və düşüncəsi bizi maraqlandırmır. Sadəcə, biz daha da yaxşı oynayıb, yaxşı nəticə əldə etmək üçün səfərə yollanırıq"**-Qurban Qurbanov deyib ki, komandanın ümumi vəziyyəti pis deyil, futbolçulara iki gün tam istirahət də verilib. **"Onların çoxdan buna ehtiyacları var idi. Ümidimiz böyükdür. Futbolçular həddindən artıq istəklidirlər. Bakıda məğlub olduğumuz görüşdən sonra mətbuat konfransında qeyd eləmişdim ki, hamımız üzgünük. Amma xeyli vaxt keçdi. Bu gün hiss edirəm ki, oyunçular daha yaxşı hazırlıqlıdırlar. Ukraynaya ümidlə gedirik. Düşünürəm ki, futbolçular gözəl oyun və yaxşı nəticə üçün maksimum çalışacaqlar"**-deyə, baş məşqçi bildirib.













***

"Vorskla" klubu Ukrayna çempionatında hazırda 4-cü sırada qərarlaşıb. Klub 14 oyundan 24 xalı toplayıb. Yada salaq ki, Ukrayna çempionatında 12 klub mübarizə aparır. İkinci dəfədir Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanan "Vorskla"nın *(bundan əvvəl Ukrayna klubu 2011/12 mövsümündə qrup mərhələsində iştirakçı olub. "Hannover", "Standard" və "Kopenhagen"lə eyni qrupda mübarizə aparan paltavalılar son pilləni tutublar)* bu qrupda ikinci yerə iddiasının nə qədər ciddi ola biləcəyini bugünkü qarşılaşmadan sonra biləcəyik. Oyunun heç-heçə olacağını gözləyənlər daha çoxdur, amma bu cür qarşılaşmalarda əvvəlcədən verilən proqnoz çox zaman tutmur. Aydındır ki, "Qarabağ" da tənqidlərdən, xalsız qalmaqdan təngə gəlib və bu gün heç olmasa, heç-heçə edərək ilk xalını qazanmağa çalışacaq. Rəqibin hansı taktika seçəcəyini demək çətindir, amma qələbəyə oynayacaqları şübhəsizdir. Bəlkə bu cür irəliyə meyllilik "Qarabağ"a əks-hücumlarda rəqibi cəzalandırmaq şansı verdi. Bu oyunda hücumdan çox müdafiə xəttinin necə oynayacağı daha əhəmiyyətli ola bilər. Zatən, elə güclü hücum sistemi və hücumçumuz yoxdur... Bu mövzuya heç girməyək...

***

"Vorskla" klubunun saytında (https://vorskla.com.ua/ ttps://vorskla.com.ua/) "Qarabağ"ın Poltavaya gəlməsinə əks etdirən fotolar var. Azsaylı olsa da, orada yaşayan həmvətənlərimiz "Qarabağ"ı isti qarşılayıblar və futbolçular da bu qarşılanmadan məmnun görünürlər. Qalır bu gecə "Qarabağ"ın bizi üzməməsi...

**Uğurlar, "Qarabağ"...**

**❑ Nazim SABİROĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 238 (7127) 8 noyabr 2018



# Belçika padşahının gizli qızı analiz tələb edir

**Məhkəmə Belçikanın keçmiş monarxı Albert II-dən atalıq testini keçməsi üçün nümunələr tələb edib. Belçikalı rəssam Delfin Boel DNK analizi uğrunda 2013-cü ildən bəri mübarizə aparırdı. O, özünü keçmiş Belçika padşahının qeyri-qanuni qızı hesab edir və onun mirasından pay tələb edir.**

Boelin anası, baronessa Sibil de Seli-Lonqşan iddia edir ki, o, Albertin sevgilisi olub. Onun dediyinə görə, münasibətləri 1966-cı ildən 1984-cü ilə qədər davam edib. "Mən düşünürdüm ki, infeksiyaya görə uşağım ola bilməz. Ona görə də biz qorunmurduq. Delfin 1968-ci ildə doğulub və 18 yaşı olanda bilib ki, atası kim olub". Albert II Boellə qohumluq əlaqələrini inkar edir. Məhkəmə qərarı bu mövzudakı bütün suallara nöqtə qoya bilər. Əgər keçmiş padşahın vəkilləri heç nə düşünə bilməsələr, o, məhkəmə qərarına tabe olaraq, nümunələr verməli olacaq. Testdən imtina etmək günahın etirafı sayıla bilər. Bu halda Boel də onun qanuni mirasçısı sayıla bilər.

# Mütaliə edənlər daha çox yaşayır

**Yale Universitetindən olan araşdırmaçılar yaşı 50-dən artıq olan 3.655 nəfərə mütaliə vərdişi barədə soruşub. Nəticələrə əsasən, respondentləri 3 qrupa ayırıblar: oxumayanlar, həftədə 3.5 saatdan az oxuyanlar və həftədə 3.5 saatdan çox oxuyanlar. Araşdırmaçılar hər 3 qrupu 12 il boyunca izləyib. Ən çox oxuyanlar yüksək gəlirə sahib olan qrupdakı kollec təhsilli qadınlar idi.**



Araşdırma boyunca davamlı olaraq kitab oxuyan hər iki oxucu qrupundakıların oxumayanlardan daha uzun yaşadığı müşahidə edilib. Həftədə 3,5 saat oxuyanlar oxumayanlarla müqayisədə 23 ay artıq yaşayırdı. Araşdırmada cinsiyyət, sərvət, təhsil və ya səhhət faktorlarından asılı olmayaraq, bütün oxuyan insanların ömrünün uzandığı açıqlanıb.

# Komaya düşən kişi 12 il sonra özünə gəldi



**Milli.az xarici mətbuata istinadla xəbər verir ki, 12 il əvvəl qəzaya düşərək komaya girən kişi ayılanda anası başının üstündə olub. Anasının başı üstündə onun ayılmağını gözlədiyini görən Wang Shubao gözyaşlarına hakim ola bilməyib.**

75 yaşlı qadın Wei Mingying oğlunun 10 ildən çox çəkən müalicəsi üçün 17 min dollardan çox borca girib.

Beijing News-a açıqlama verən qadın bildirib ki, 12 il ərzində oğlunu tək qoymayıb. Hətta onun aylarla ac olduğu vaxtlar da olub. "Bəzi günlər var idi ki, ac qalırdım. Çox kasıb idik. Yemək almağa imkanım çatmırdı".

Qeyd edək ki, 2006-cı ildə Wang Shubao Çinin Şandon vilayətində qəzaya düşərək komaya girib.

# Hər 5 kişidən biri ata olarkən depressiyaya düşür

**Rusiya mətbuatının yazdığına görə, araşdırmalar hər 5 kişidən birinin ata olduqdan sonra depressiyaya düşdüyünü sübut edib.**

Belə ki, üzərində müşahidə aparılan ataların 21 faizi övladlarının 12 yaşı olana qədər mütəmadi olaraq depressiyadan əziyyət çəkirlər. Araşdırmalar zamanı 87 min ailə üzərində müşahidə aparılıb. 1993-2007-ci illərdə həkimə müraciət edən gənc ataların beşdə birinin depressiya əleyhinə müalicə olunduğu məlum olub.

Maraqlı məqam isə odur ki, körpələri dünyaya gələrkən gənc ataların cəmi 3%-i ruh düşkünlüyü yaşayır. Lakin zaman keçdikcə bu göstərici artır. Belə ki, övladı 4 yaşında olan ataların 10%-i, 8 yaşında olanların 16%-i, 12 yaşında olanların isə 21%-i depressiyadan əziyyət çəkir.

# Bu da soyğunçuluğun yeni növü

**Türkiyənin Bursa şəhərində dələduzlar qəribə bir üsul tapıblar. 58 yaşlı, 2 uşaq atası Ahmet Tokerə oğluna ev almaq istədiyini dələduz olduğunu bilmədiyi şəxslərin yanında deyib. Bununla da kişinin ev almaq üçün pulu olduğu qənaətinə gələn dələduzlar ona gizli nömrələrdən zəng edərək, bank hesabının PKK tərəfindən istifadə edildiyini, bu səbəbdən də həmin pulları onlara yollamalarını deyib: "Evinə basqın ola bilər, pulları bizə gətir". Panikaya düşən təqaüdçü isə öz növbəsində avtobusa minib banka getməyə hazırlaşıb. Yolda həmsöhbət olduğu bir şəxs ona xəbərdarlıq edəndən sonra kişi gerçək vəziyyəti öyrənib.**

# Qoroskop (8 noyabr)




**QOÇ** - Səhər saatlarından ovqatınız bir qədər aşağı olsa da, saat 11-dən sonra hər hansı gərginliyin şahidi olmayacaqsınız. Bu gün aldığınız bütün işgüzar təklifləri qəbul edin.

**BUĞA** - Bütün vacib planlarınızı günün birinci yarısına təyin edin, xüsusən də əgər bu, iş və maliyyə ilə bağlıdırsa. Nahardan sonrakı müddətdə isə daha çox neytrallıq nümayiş etdirin.

**ƏKİZLƏR** - Daxili səsinizə qulaq asın. Düşünməyin ki, hər şeyin sonudur. Əgər bunu bacarsanız, təxminən saat 12-dən etibarən proseslərin müsbətə doğru dəyişməsinin şahidi olacaqsınız.

**XƏRÇƏNG** - Günün ümumi mənzərəsi qənaətbəxş olduğundan nəzərdə tutduğunuz işlərin böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Bu istiqamətdə sizə köməklik göstərənlər də olacaq.

**ŞİR** - Fəaliyyətinizdə mövcud olan boşluqları doldurmaq üçün mütləq təcrübəli, həm də etibarlı insanların məsləhətlərindən yararlanın. Unutmayın ki, "qara zolağ"ın sonuna çatmısınız.

**QIZ** - İttiham və giley-güzarınızı bir tərəfə atın. İndiki çətin mərhələdə bu hal heç bir müsbət nəticə verən deyil. Danışmaqdansa enerjinizi toparlayıb yarımçıq işlərinizə davam edin.

**TƏRƏZİ** - Bu gözəl təqvimdə hər kəslə duyğusal davranın. Kiminsə qəlbini qırmağa, zəhmətini aşağılamağa çalışmayın. Saat 16-19 aralığında olduqca uğurlu mərhələdən keçəcəksiniz.

**ƏQRƏB** - Bürcünüzdə aktivləşən planetlər sizə primitiv görünən bəzi məsələlərin aktivləşməsinə səbəb olacaq. Amma gərək özünüz də fəal olasınız. Doğmalarınızla münasibətləri qaydasına salın.

**OXATAN** - Nəzərinizə çatdıraq ki, bu gün planlarınız kosmik sürətlə reallığa yaxınlaşacaq. Etibar etdiyiniz adamların dəstəyindən də yararlanmağa çalışmalısınız. Uzaq yola şıxmaq fikrinə düşməyin.

**OĞLAQ** - Fəaliyyət göstərdiyiniz obyektlərdə mümkün qədər mübahisələrdən qaçın. Əks təqdirdə iş qrafikiniz pozulacaq. Ulduzlar qarşı tərəfin obyektiv fikirlərinə hörmətlə yanaşmağı tövsiyə edir.

**SUTÖKƏN** - Yaxın həftə ərzində görəcəyiniz bütün işləri nahara qədər qətiləşdirin. Əks təqdirdə, sonra buna vaxt tapmayacaqsınız. Bu gün səfərə çıxmaq, pul riski etmək uğursuzdur.

**BALIQLAR** - Sizi indiki passiv nöqtədən tərpədə bilən adamlarla rastlaşacaqsınız. Bu səbəbdən ünsiyyətdə olduğunuz hər kəslə mülayim davranın. Bütün astroloji mənbələr qurtulacağınızı bildirir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Tualet kağızı ilə yol "çəkdilər"



**Amerikanın Kolorado ştatındakı Littlton şəhərində yaşayan sakinlər yeni təmir üsulundan təəccübləniblər. Belə ki, işçilər yolu tualet kağızı ilə örtüblər. Buna səbəb isə yolların həmin hissəsində hərəkətə məhdudiyyət qoyulmamasıdır. Bu günə qədər Littltonda 120-yə qədər küçəni bu üsulla təmir ediblər. Keçmişdə bu üsulu uğurla digər Amerika şəhərlərində də tətbiq ediblər.**

Bu ilin iyul ayında isə Volqoqradda 45 dərəcə istinin asfaltı necə əritməsi və bunun piyadaların gəzməsinə necə mane olması barədə video yayılmışdı. Videorolikin qəhrəmanları ərimiş asfaltda ayaqqabılarını itirir, ona görə də corabla yolu keçməyə çalışır, ya da bir-birinin belində asfaltı adlayırdılar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100